RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 13 (8329) CÜMƏ AXŞAMI, 23 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Davosda Prezident İlham Əliyevə növbəti dəstək

## Dünya İqtisadi Forumunun Prezidenti Borge BRENDE: "Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq"

**İsveçrədə işgüzar səfərdə olan Prezident İlham Əliyev Davosda dövlət və hökumət başçıları, beynəlxalq şirkətlərin rəhbərləri ilə mühüm görüşlər keçirir. Bu görüşlər zamanı şirkətlərin Azərbaycanla işbirliyi, əlaqələrin daha da şaxələnməsi üçün maraqlı təkliflər irəli sürülür, bəziləri isə qəbul edilir.**

**Yanvarın 21-də isə Davosda ölkəmiz adına daha bir qürurverici hadisə yaşandı. Prezident İlham Əliyevlə Dünya İqtisadi Forumunun Prezidenti Borge Brende arasında keçirilən görüşdə niyyət protokolu imzalandı. Sənədə əsasən Dünya İqtisadi Forumunun ölkəmizdə afilə edilmiş regional mərkəzi yaradılacaq.**

### Əməkdaşlığın təməli

Öncə bir xatırlatma edək. Davosda Dünya İqtisadi Forumunun 50-ci iclası keçirilir. 2007-ci ildən foruma dəvət edilən Prezident İlham Əliyev 14-cü dəfə mötəbər toplantıda iştirak edir.

Tam bir il öncə, yeni 2019-cu ilin yanvar ayının 21-də Davosda cənab İlham Əliyevlə cənab Borge Brende arasında keçirilən görüşdə Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə tərəflər arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi.

Prezident İlham Əliyev Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək dedi ki, bu sənəd tərəfdaşlıq ruhunu və qarşılıqlı səyləri davam etdirməkdə hər iki tərəfin istəkli olduğunu nümayiş etdirir. Cənab İlham Əliyev Azərbaycanın dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcəyini də vurğuladı.

### Əlaqələrin yeni səhifəsi üçün yaxşı başlanğıc

Bir ildən sonra - 2020-ci ildə yenidən tərəflər arasında niyyət protokolu imzalandı və sənədin əhəmiyyəti qeyd edildi. Sənədə əsasən forumun ölkəmizdə afilə edilmiş regional mərkəzi yaradılacaq. Söhbət zamanı vurğulandı ki, bu cür mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi 4-cü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

Prezident İlham Əliyev bunu əlaqələrin yeni səhifəsi üçün yaxşı başlanğıc adlandıraraq dedi ki, Azərbaycanın Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr arasında olması fəxredici hadisədir: "Bu, həqiqətən də bizim əlaqələrimizdə yeni səhifədir. Ümidvaram ki, gələcək keçmiş qədər uğurlu olacaq".

Davos Forumunun Prezidenti Borge Brende isə öz növbəsində vurğuladı ki, cənab İlham Əliyev qarşıya hədəf qoyanda onu mütləq həyata keçirir və bu səbəbdən də diplomat düşünür ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq.

### 4-cü sənaye inqilabı - rəqəmsallaşma, süni intellekt

Bu gün dünya 4-cü sənaye inqilabına qədəm qoyub. Əgər birinci sənaye inqilabı buxar maşınının kəşfi ilə istehsalın mexanikləşməsi, ikinci sənaye inqilabı elektrik enerjisinin kütləvi istehsalı ilə sənayeləşmə, üçüncü sənaye inqilabı istehsalın avtomatlaşdırılması üçün elektronika, kompüterləşmə və informasiya texnologiyalarından kütləvi istifadəni nəzərdə tuturdusa, dördüncü sənaye inqilabı ("Sənaye 4.0") rəqəmsallaşmanı, texnologiyaların birləşməsi və fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirir.

"Sənaye 4.0" müasir dövrün ən aktual mövzularından biridir. 4-cü sənaye inqilabı innovasiya, süni intellekt və robotlar dövrü deməkdir. Bu gün dünya ölkələri "Sənaye 4.0" üstündə ciddi işlər aparırlar. Qeyd etdiyimiz kimi, rəqəmsal dövrdə əhəmiyyətli inkişafa nail olmağın, 4-cü sənaye inqilabı dövründə geri qalmamağın yollarından biri bütün sahələrdə innovasiyaların tətbiqi və ölkədə innovasiya sisteminin inkişaf etdirilməsidir. Süni intellekt və müxtəlif sahələrdə robotlaşmanın artması, "3D Printing", dronlardan istifadə, bərpaolunan enerjidən istifadənin artması, elektrikli maşınların artması, sürücüsüz nəqliyyat vasitələrinin meydana gəlməsi və s. göstəricilərlə 4-cü sənaye inqilabının başladığını deyə bilərik. Bütün sadalanan və sadalanmayan problemlərə rəğmən, 4-cü sənaye inqilabının həyatımızı kəskin şəkildə dəyişməsi faktı danılmazdır. Əsas məsələ bu dəyişikliyin necə idarə olunmasıdır.

Ardı 3-cü səh.

Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri

# İlham ƏLİYEV: "Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir"

## Davosda Prezident İlham Əliyev ilə OPEC-in baş katibi Məhəmməd Barkindonun görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin beş il bundan əvvəl Dünya İqtisadi Forumunda çıxışını xatırladan **Məhəmməd BARKİNDO** dedi:

- Cənab Prezident, xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü.



**Prezident İlham ƏLİYEV:** Bəli, neftin qiyməti 30 dollar ətrafında idi.

**Məhəmməd BARKİNDO:** Biz ən pis vəziyyətin şahidi idik. Cənab Prezident, Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq.

**Prezident İlham ƏLİYEV:** Tamamilə doğrudur.

**Məhəmməd BARKİNDO:** Tarixdə ilk dəfə idi bu, baş verirdi. Sizin rəhbərliyiniz, Sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab Prezident. Bu, bizim üçün çox önəmlidir və Sizin də qeyd etdiyiniz kimi, ötən beş ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalmışdır.

**Prezident İlham ƏLİYEV:** Xoş sözlərinizə görə təşəkkür edirəm. Bunu xatırladığınız üçün sizə minnətdaram. Həmin gün burada - Davosda mənə bu məsələ ilə bağlı nə etmək lazım olduğu barədə sual verildi və mən bu təklifi irəli sürdüm. Bu təklifi ciddi nəzərə aldığına görə OPEC-ə minnətdaram və biz həqiqətən çox nadir tərəfdaşlıq formatını yaratdıq. Hesab edirəm ki, bu formata malik olan, lakin təkcə format yox, eyni zamanda qərarları səmərəli icra edən başqa belə bir beynəlxalq təşkilat yoxdur. Bəzən hətta bir təşkilat daxilində razılığa gəlmək mümkün olmur. Lakin OPEC-ə üzv olan və üzv olmayan ölkələr, böyük və kiçik neft istehsalçıları birləşdilər. Çünki bu, bizim ümumi məqsədimiz idi. Lakin əlbəttə ki, sizin rəhbərliyiniz olmasaydı, bizim səylərimiz nəticəsiz qalardı, çünki siz təşkilatın rəhbəri olaraq nəinki bütün prosesləri əlaqələndirdiniz, həm də prosesə rəhbərlik etdiniz. Düşünürəm və əminəm ki, uğurun səbəblərindən biri də bütün ölkələrin sizə böyük etimad göstərməsi idi. Bu, çox mühüm amil idi. Beləliklə, bizdə bütün mühüm elementlərin birləşməsi var idi. Təşkilat tərəfindən güclü rəhbərlik, həmçinin təşkilata üzv dövlətlərin və üzv olmayan dövlətlərin arasında çox ciddi əməkdaşlıq var idi. Mən bilirəm, hətta bəzi üzv ölkələr arasında hasilatın müəyyən dərəcədə azalmasına nail olmaq asan deyildi. Əlbəttə ki, çox səmərəli monitorinq prosesi, həmçinin etimad məsələsi var idi. Mən düşünürəm ki, bu prosesin bütün üzvləri hazırda sözlərinə əməl etməyə çalışırlar. Çünki etimadı qorumaq lazımdır. Həmçinin mən OPEC+ formatında görüşlərin birinin Bakıda keçirilməsi ilə bağlı təşəbbüsə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən sizi dəvət etdim və siz bu dəvəti qəbul etdiniz. Biz əməkdaşlığımızın gücləndirilməsini səbirsizliklə gözləyirik. Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir. Əminəm ki, bu, belə də davam edəcək.

# Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Pakistan ölkəmizin haqlı mövqeyini dəstəkləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 21-də Davosda Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Pakistan arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edildi.

Baş Nazir İmran Xan bildirdi ki, Pakistan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin haqlı mövqeyini dəstəkləyir və işğalçı Ermənistanla heç vaxt diplomatik münasibətlər qurmayıb. Azərbaycanda turizmin sürətlə inkişaf etdiyini, xüsusilə müsəlman ölkələrindən gələn ziyarətçilərin sayında böyük artımın müşahidə edildiyini deyən İmran Xan ölkəmizin bu sahədəki təcrübəsindən yararlanmaq niyyətində olduqlarını bildirdi.

Prezident İlham Əliyev Kəşmir məsələsində Azərbaycanın Pakistana daim dəstək verdiyini qeyd etdi. Dövlətimizin başçısı həmçinin ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində Pakistanı dəstəklədiyi vurğulandı.

## 9 fevral Milli Məclisə seçkilər günüdür




**Ölkəmizdə seçkilər hər zaman demokratik prinsiplərə uyğun keçirilir. Zaman keçdikcə bu ənənə daha da inkişaf edir. Bunu Sumqayıt şəhərinin timsalında da görmək olar.**

Fevral ayının 9-da keçiriləcək parlament seçkilərində iştirak etmək üçün dairə seçki komissiyaları üzrə qeydə alınan namizədlərin sayının çoxluğu, seçkiöncəsi sağlam rəqabət mühitinin mövcudluğu, hər bir namizədə bərabər imkanların yaradılması bundan xəbər verir. Əvvəlki seçkilərdə də müşahidəçilər bu şəhərdə seçkilərin texniki təchizatından və səviyyəsindən razı qalıblar.

Ardı 4-cü səh.

# İqtisadi inkişafın sürəti investisiya qoyuluşundan asılıdır

## İlin yekunları ilə bağlı müşavirədə bu məsələyə xüsusi diqqət yetirildi

**Prezident İlham Əliyev ötən ilin yekunlarına həsr olunmuş müşavirədə iqtisadiyyatın bütün sahələrində baş verən müsbət dinamikanı qeyd edərkən investisiya qoyuluşunun əhəmiyyətini də vurğulayıb.**

Məlumdur ki, investisiya qoyuluşu iqtisadiyyatın inkişafını təmin edən şah damarıdır. İnkişaf etmiş ölkələrin keçdiyi yola diqqət yetirəndə də görürük ki, qazanılan nailiyyətlərdə iqtisadiyyata fasiləsiz investisiya qoyuluşu mühüm əhəmiyyət daşıyır.

Dövlət başçısı sözügedən müşavirədə investisiya qoyuluşunun məqsədi və istiqamətləri barədə demişdir: "İkinci vəzifə ondan ibarətdir ki, investisiya proqramımız infrastruktur layihələrinin icrası ilə paralel olaraq iqtisadiyyatın real sektoruna dəstək verməkdir. O cümlədən bu infrastruktur layihələrinin real sektora olan təsiri də bir növ təhlil edilməlidir. Misal üçün, yeni infrastruktur tutaq ki, bu və ya digər rayonda iqtisadiyyatın real sektoruna nə dərəcədə müsbət təsir göstərmişdir".

Müşavirədə o da qeyd edildi ki, istər dövlət sərmayələrinin, istər özəl sərmayələrin iqtisadiyyata cəlb olunması xüsusi əhəmiyyətə malikdir. Çünki dünyanın iqtisadi tarixi və ölkəmizin yaxın keçmişdəki təcrübəsi göstərir ki, iqtisadi artımın sürəti məhz qoyulan investisiyalardan asılıdır. Ötən il əsas kapitala investisiyaların ümumi daxildəki payı 23,2 faiz təşkil edib. Məqsəd isə bu rəqəmin 25 faiz və ya ondan yüksək olmasıdır.

Ardı 6-cı səh.

# İlham Əliyev “SUEZ” şirkətinin Azərbaycanın aidiyyəti qurumları ilə fəaliyyəti barədə məlumatlıdır

**Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “SUEZ Group”un yeni baş icraçı direktoru Bertran Kamusla görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Bertran Kamus rəhbərlik etdiyi şirkətin hazırda Azərbaycanda həyata keçirdiyi layihələr, bu layihələrin gedişi, həmçinin perspektiv proqramlar barədə məlumat verdi.

Rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə danışan baş icraçı direktor “SUEZ Group”un kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı istiqamətində, habelə irriqasiya və meliorasiya sahəsində gələcək fəaliyyət proqramlarını Prezident İlham Əliyevə təqdim etdi.

Görüşdən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bildirdi ki, “SUEZ” şirkətinin Azərbaycanın aidiyyəti qurumları ilə fəaliyyəti barədə məlumatlıdır və əldə edilən nəticələr də qənaətbəxşdir.

Kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı, habelə meliorasiya sahəsində qabaqcıl texnologiyaların tətbiqi istiqamətində “SUEZ” ilə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.

# Azərbaycan ilə Polşa arasında neft-qaz sektorunda əməkdaşlıq imkanlarının araşdırılması haqqında fikir mübadiləsi aparılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı məsələləri müzakirə olundu, neft-qaz sektorunda əməkdaşlıq imkanlarının araşdırılması, həmçinin regionda və dünyada mövcud geosiyasi vəziyyət haqqında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı bu ilin iyun ayında Tallində keçiriləcək Üç Dəniz Təşəbbüsündə Azərbaycanın da iştirak etməsinin əhəmiyyəti vurğulandı, Vışeqrad Qrupu və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olundu.



# Azərbaycanın, o cümlədən gənc nəslin əsas ideyası və ideologiyası suverenlik, müstəqillik və öz ehtiyatlarına güvənməsidir









**Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında iştirak edib.**






AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı panelin moderatorunun suallarını cavablandırıb.

**- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, dediyimiz kimi, Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz - Moskvaya, yoxsa Pekinə?**

**Prezident İlham ƏLİYEV:** Bakıya.

**Moderator: Bakıya**...

**Prezident İlham ƏLİYEV:** Bəli, bizim qonşularımıza münasibətdə siyasətimiz mehribandır, lakin, eyni zamanda, milli maraqlarımız həmişə birinci yerdədir. Buna görə də müstəqillik illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatları həyata keçirdiyimizə görə əldə olunmuşdur. Bizim nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik qiymətləndirmələrində də öz əksini tapmışdır. İnfrastruktur sahəsi çox yüksək səviyyədə inkişaf edib. Yolların inşası və keyfiyyətinə gəldikdə, biz dünyada iyirmi yeddinci yerdə qərarlaşmışıq.

**Moderator: Çox gözəl. Hökuməti yeniləməyinizi müşahidə etmək mənim üçün maraqlı idi. Siz gənc texnokratları sıralarınıza cəlb etmisiniz.**

**Prezident İlham ƏLİYEV:** Bəli, tamamilə doğrudur, hökumət dəyişdi. Hökumətə yaxşı təhsil almış, müasir baxışlı yeni insanlar dəvət olunmuşdur. Çünki dəfələrlə ictimaiyyətə açıqlamalarımda dediyim kimi, iyirmi birinci əsrdə iyirminci əsrin baxışı ilə uğur qazanmaq olmaz. Buna görə də yeni insanlar nəinki təkcə hökumətə, eyni zamanda, çox böyük dəyişikliklərə məruz qalmış Prezident Administrasiyasına da gətirilmişdir. Gələn ay bizdə erkən parlament seçkiləri keçiriləcək. Bu seçkilərin məqsədi insanlara etimad göstərdikləri namizədləri seçmək üçün imkan vermək idi. Əminəm ki, seçkilərdən sonra parlament də islahatların davamının mühüm hissəsi olacaqdır.

**Moderator: Həyatlarının yaxşılaşdırılmasını istəyən azərbaycanlılar üçün Siz yeni hökumətin onlara nələr verəcəyinə ümid edirsiniz, onlar növbəti bir və ya iki ildə hansı fərqləri müşahidə edəcəklər?**

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, əvvəllər biz əsasən infrastruktur layihələrinə sərmayə yatırmışıq. Buna görə yenə də Davos Forumuna əsasən Azərbaycan bu gün elektrik enerjisinə çıxış imkanına görə ikinci yerdədir. Azərbaycanda qazlaşdırma səviyyəsi 96 faiz təşkil edir. Biz 16 min kilometr yol, 3 mindən çox məktəb və 700 xəstəxana inşa etmişik. Lakin bunlar dövlət sərmayəsinin bir hissəsi idi. İndi bizə nə lazımdır? Bizdən yaxşı idarəçilikdə, şəffaflıqda, hesabatlılıqda, həyat və yaşayış standartları ilə bağlı meyarların Avropa İttifaqının standartlarına daha da yaxınlaşması üçün yeni yanaşma tələb olunur. Hesab edirəm ki, bu, mümkündür. Buna nail olmaq olar, çünki bizim güclü siyasi dəstəyimiz var. Yenə də mən Azərbaycan hökumətinin strateji baxışını 10-cu yerə, hökumətin sabitlik təmin etmək bacarığını isə dünyada 11-ci yerə layiq görən Davos Forumunun qiymətləndirməsinə toxunmaq istəyirəm. Beləliklə, yeni hökumət əsas diqqətini artan əhalidən ibarət olan böyük çağırış üzərinə yönəldəcək. Buna görə də bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. Müstəqillik illərində əhalimizin sayı 7 milyondan 10 milyona qədər artdı. Beləliklə, əhaliyə əlavə infrastruktur, əlavə ərzaq təminatı tələb olunur. Bizim əhalimiz hər il 100 mindən çox artır. Bu isə o deməkdir ki, bizə ən azından ildə 100 min iş yeri lazımdır. Bu, asan deyil. Buna görə də hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə - 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq. Həmçinin bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız var. Bu gün bu borc çox aşağıdır, ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz onu ümumi daxili məhsulun 10 faizinə qədər endirməkdir. Əlbəttə ki, inflyasiyanın keçən il olduğu kimi 2,5 faiz səviyyəsində, aşağı səviyyədə saxlanılması məsələsi üzərində də işləyəcəyik. İnsanların gəliri həmişə inflyasiyanı üstələməlidir, habelə iş yerlərinin yaradılması da demoqrafik artımdan daha çox olmalıdır.

**Moderator: Mən oxumuşam ki, indi Mərkəzi Asiya əhalisinin üçdəbir hissəsinin yaşı 15-dən aşağıdır. Yəni, əhalinin üçdəbir hissəsinin 15 yaşı tamam olmayıb. Dünyanın digər hər bir qitəsində gənclərə nəzər salsaq, biz onları küçələrdə görmüş olarıq, onlar öz səslərinin daha çox eşidilməsini tələb edirlər, onlar daha çox səsə malik olduqlarına öyrəşiblər. Siz də indi qeyd etdiniz ki, ölkənizdə gənclərin sayı çoxdur. Bəs, onlar küçəyə çıxsa və daha çox səs tələb etsə, Siz onlara nə deyərdiniz?**

**Prezident İlham ƏLİYEV:** Biz onların nə istədiklərini dinləyərdik. Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, gənclər startap biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edib. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük. Səmimi danışsaq, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir. Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şüarlardan istifadə etmiş, lakin sonra vəd etdiklərini yerinə yetirə bilməmişdir. Əslində, onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə onu müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altında olur. İnsanlar onu seçir, lakin bir ildən sonra o, ona göstərilən etimadı itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilmişdir. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır.

**Moderator: Təşəkkür edirəm, Prezident Əliyev. Siz necə düşünürsünüz, Azərbaycandakı gənclər bu baxışı, regional təşkilatın bir hissəsi olmaq və həmin regional təşkilata suverenliyi həvalə etmək istəyini bölüşürlərmi? Azərbaycanda bu ideya yerli səviyyədə dəstəklənirmi?**

**Prezident İlham ƏLİYEV:** Xeyr, mən belə düşünmürəm. Düşünürəm ki, Azərbaycanın, o cümlədən gənc nəslin əsas ideyası və ideologiyası suverenlik, müstəqillik və öz ehtiyatlarımıza güvənməkdir. Prezident olaraq mənim hədəflərimdən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək idi. Başqa sözlə, iqtisadi müstəqillik əsas prioritet idi, çünki bu, siyasi müstəqillik üçün bünövrədir. Sözsüz ki, müxtəlif ölkələrin müxtəlif gündəmləri var. Müxtəlif ölkələrin iqtisadiyyatları digərlərininkindən daha həssasdır. Azərbaycana gəldikdə, bir daha qeyd edirəm ki, bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bundan əlavə, biz müasir infrastrukturun yaradılmasına çoxlu investisiya yatırmışıq. İkincisi, qeyd etdiyiniz kimi, bizim nəsil çox gəncdir. Bizim əlavə və çox kreativ əmək ehtiyatlarımız var. Əlbəttə ki, biz təbii ehtiyatlarla - neft və qazla zənginik, bu da bizim üçün enerji təhlükəsizliyi yaradır. Ona görə də bizim qonşu ölkələr və çox sayda tərəfdaşlarımızla münasibətlərimiz qarşılıqlı maraqlara əsaslanır. Bundan əlavə, biz bu və ya digər beynəlxalq qurumda təmsilçiliyimizlə bağlı hər bir məsələyə praqmatik yanaşırıq. Bu, bizə nə verəcək? Əgər, bu, bizə daha çox iqtisadi stimul, biznes üçün daha çox imkanlar, daha çox sabitlik və daha çox təhlükəsizlik verəcəksə, əlbəttə ki, biz bunu nəzərə alırıq. Biz bir sıra beynəlxalq institutların üzvüyük. Onlardan biri Qoşulmama Hərəkatıdır.

**Moderator: Sizin region üçün ən parlaq ümidiniz və ən pis kabusunuz nədir? Prezident Əliyev, buyurun.**

**Prezident İlham ƏLİYEV:** Mən düşünürəm ki, xüsusən regional vəziyyəti və yeni yaranmaqda olan münaqişə zonalarını nəzərə alaraq hazırda ən vacib olan məsələ regional sabitlikdir. Ölkədə bizim daxili risklərimiz yoxdur, istər siyasi risklər olsun, istər iqtisadi. Ölkə sabitdir, inkişaf davamlıdır. Bizim həyata keçirilməkdə olan və xalqımız üçün böyük imkanlar yaradan çox geniş islahatlar gündəliyimiz var. Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı. Bunun üçün biz məsuliyyət daşımırıq. Təəssüf ki, biz bu prosesə tam olaraq təsir edə bilmərik. Məsuliyyəti bu kövrək sabitliyin daha da sarsılmaması üçün öz aralarında müəyyən məsələlərlə bağlı razılığa gəlməli olan super qüvvələr, super güclər daşıyacaq.

**Moderator: Paneldə regionu yaxşı tanımayanlar üçün. Baş qaldırmasından daha çox narahat olduğunuz gərginliklər hansılardır?**

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, biz bu gərginlikləri sərhədlərimizin yaxınlığında görürük. Biz Əfqanıstanda gərginlikləri görürük, biz orada həll edilməmiş vəziyyəti görürük. Biz özümüz Ermənistan tərəfindən işğala məruz qalmışıq və bu, daimi təhdid mənbəyidir. Ərazilərimizin, demək olar ki, 20 faizi beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olaraq Ermənistanın işğalı altındadır. Biz ABŞ-İran münasibətlərində gərginliyin kəskinləşməsinin şahidi oluruq. Regionda artıq baş qaldırmaqda olan bir çox qaynar nöqtələr potensial təhdidlərdir. Ona görə də biz sərhədlərimizin xaricində təhlükəsizliyin və müəyyənliyin olmasında çox maraqlıyıq. Çünki hətta Azərbaycandan kənarda olan iqtisadi çətinliklər bizim iqtisadi və sosial vəziyyətimizə təsir edə bilər. Buna görə də düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur.

**Moderator: Təşəkkür edirəm, cənab Prezident.**

❖ ❖ ❖

Panel iclasında Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa, “Astana” Beynəlxalq Maliyyə Mərkəzinin rəhbəri Kayrat Kelimbetov, “VTB Bank”ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin, BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya iştirak ediblər.

# Kənd təsərrüfatı sahəsində, xüsusilə heyvandarlıq sektorunda geniş əməkdaşlıq imkanları müzakirə edilib

**Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Monqolustan arasında əlaqələrin daha da dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı. Kənd təsərrüfatı sahəsində, xüsusilə heyvandarlıq sektorunda geniş əməkdaşlıq imkanlarının olduğu bildirildi, mis və qızıl mədənləri sənayesi sektorunda investisiya imkanları müzakirə edildi.

Söhbət zamanı hazırda monqolustanlı tələbələrin Azərbaycanın universitetlərində təhsil aldıqları da qeyd olundu.

# Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətləri uğurla inkişaf edir

**Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Gürcüstanın Baş Naziri Giorgi Qaxariya ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Ölkələrimizin iştirakı ilə qlobal və regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinin önəmi vurğulandı. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətinə toxunuldu. Bildirildi ki, yanvarın 21-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Avrasiya üçün yeni baxış - dayanıqlı inkişaf üçün tərəfdaşlıq" mövzusunda keçirilən iclasda bu layihənin önəmi qeyd edilib və onun yeni əməkdaşlıq formatının yaradılmasında xüsusi rolu vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsi çox mühüm layihədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə TANAP layihəsinin artıq istifadəyə verildiyi, TAP-ın isə bu ilin axırınadək hazır olacağı qeyd edildi.

Söhbət zamanı "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinin növbəti mərhələsi üzrə yeni layihəyə dair müzakirələr aparıldı. Prezident İlham Əliyev bunun çox mühüm layihə olduğunu bildirdi.

Dövlətimizin başçısı bu ilin fevralında Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurasının nazirlər səviyyəsində görüşünün keçiriləcəyini qeyd etdi.

Robert Dadli BP-nin öz fəaliyyətində ətraf mühitin qorunmasına daha böyük əhəmiyyət verəcəyini dedi.

# Davosda Prezident İlham Əliyevə növbəti dəstək

## Dünya İqtisadi Forumunun Prezidenti Borge BRENDE: "Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq"

*Əvvəli 1-ci səh.*

### Həyat normaları və düşüncə tərzi tamamən dəyişəcək

Dünya İqtisadi Forumunun iki il öncə hazırladığı "Qlobal Rəqabətlilik Hesabatı-2018"də 4-cü sənaye inqilabı da əsas götürülərək yeni formatda rəqabətlilik indeksi tətbiq edilmişdi. Hesabatda qeyd edilir ki, 4-cü sənaye inqilabının mürəkkəbliyi, əhatə dairəsi və miqyası o qədər geniş olacaq ki, bəşəriyyətin yaşayış şəraiti, həyat normaları və düşüncə tərzi tamamən dəyişəcək. Bəzi alimlər hətta bu inqilabın bəşər və insan sözünün tərifini dəyişəcəyini iddia edirlər.

Görəsən dördüncü sənaye inqilabında bizi nələr gözləyir?

Bu sənaye inqilabı miqyası, həcmi və mürəkkəbliyi baxımından bəşəriyyətin bütün əvvəlki təcrübələrinin heç birinə bənzəmir. Ekspertlər hesab edirlər ki, qarşıda bizi süni intellekt, robot-avtomobillər, nanotexnologiya, biotexnologiya və s. daxil olmaqla, ən geniş sahələrdə heyrətamiz texnoloji sıçrayış gözləyir.

Yeni sənaye inqilabını çox vaxt kompüter və telefon əməliyyatı sistemləri nümunəsində rəqəmsal göstərici əlavə etməklə "Sənaye 4.0" kimi adlandırırlar. İlk dəfə bu termin 2011-ci ildə səslənib. Almaniya hökuməti "Sənaye 4.0"ı ölkənin "Yüksək Texnologiya Strategiyası 2020"nin ayrılmaz tərkib hissəsi adlandırıb. Sonradan yaradılan işçi qrupu bununla bağlı öz baxış nöqtəsini təyin edib və "Sənaye 4.0"ı istehsalın təkcə ayrı-ayrı mərhələlərinə cavabdeh olan deyil, bütünlükdə onu müstəqil şəkildə optimallaşdıran və nəzarətdə saxlayan kiberfiziki sistemlərin sənaye istehsalı və tətbiqi kimi qiymətləndirib.

Ona görə də alimlər hesab edirlər ki, "Sənaye 4.0" inkişafda yeni üfüqlər açmaqla yanaşı, heç şübhəsiz, insanlar üçün də yeniliklər və bir sıra gözlənilməzliklər gətirəcək. Davos Forumunun hesabatına görə, 2020-ci ilə dünyada təxminən 4,7 milyon ofis işçisi, istehsalatda 1,6 milyon, tikintidə isə təxminən 0,5 milyon insan öz iş yerini itirəcək. Lakin eyni zamanda biznes və maliyyə sahəsində demək olar ki, 500 min, menecment və İT sahəsində 400 min, memarlıq və mühəndislik sahəsində 300 min, satış sahəsində də 300 min yeni iş yeri açılacaq.

Yəni "Sənaye 4.0" robotlaşma təkcə insanların öz iş yerlərini itirməsi ilə deyil, həmçinin biznesin ən fərqli sahələrində yeni imkanların yaranması ilə də müşayiət olunacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Avropanın nüfuzlu "EURACTIV" portalı Azərbaycan Prezidentinin köməkçisinin müsahibəsini yayıb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi -Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Belçikaya səfəri çərçivəsində Avropanın nüfuzlu "EURACTIV" xəbər portalına telemüsahibə verib.



AZƏRTAC xəbər verir ki, "Azərbaycan: Qırmızı qərənfilləri xatırlayır və gələcəyə baxır" adlı müsahibədə Hikmət Hacıyev Dağlıq Qarabağ münaqişəsinin həllinin perspektivləri və Avropa İttifaqının münaqişə ilə bağlı mövqeyi barədə deyib: "Mənim Prezidentim tərəfindən də deyildiyi kimi, təəssüf ki, ötən il münaqişənin həlli baxımından itirilmiş il olmuşdur. Biz bu münaqişənin həlli üçün hər hansı bir xüsusi hərəkət görə bilmirik, əksinə, Ermənistanın destruktiv siyasətinin şahidi olduq. Danışıqlar prosesinin artıq təsis olunmuş formatının mövcudluğuna baxmayaraq, Ermənistan tərəfi bu formatı dəyişməyə cəhd etdi. Ermənistan və Azərbaycan bu münaqişənin tərəfləridir, ATƏT-in Minsk qrupunun həmsədrləri vasitəçilərdir. Daha sonra Ermənistan tərəfi çox yüksək səviyyədə "yeni ərazilər, yeni müharibələr" və "bir santimetr belə ərazinin qaytarılmayacağı" kimi fikirlər səsləndirdi. Nəhayət, Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində "Dağlıq Qarabağ Ermənistandır" dedi. Bu, suveren bir dövlətin ərazisinin digər ölkənin rəhbəri səviyyəsində açıq şəkildə ilhaq edilməsi deməkdir. Bu, tamamilə qəbuledilməzdir. Bu cür yanaşma nəinki danışıqlara zərbə vurur, bütövlükdə danışıqlar prosesini dağıdır. Biz həmsədr ölkələrə, beynəlxalq ictimaiyyətə ismarıc göndərdik ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi".

Avropa İttifaqı ilə yeni ticarət sazişi barədə fikirlərini bildirən Prezident Administrasiyasının rəsmisi danışıqlar prosesinin hələ də davam etdiyini, müəyyən fundamental məsələlərlə bağlı tərəflər arasında fərqli baxışların olduğunu qeyd edib: "Bununla belə, hər iki tərəf konstruktiv yanaşma göstərməklə, mövqeləri yaxınlaşdırmaq istiqamətində birgə iş aparır. Saziş layihəsinin demək olar ki, doxsan faizi razılaşdırılıb. Lakin enerji və ticarətlə bağlı bir sıra məsələlər var ki, biz Avropa İttifaqının daha çevik yanaşma göstərməsini gözləyirik. Hesab edirik ki, Avropa İttifaqı sazişlə bağlı preferensial ticarət və ya digər ifadə ilə, aqressiv ticarət yanaşması göstərməməlidir. İnanırıq ki, bu anlayışı əsas tutmaqla biz danışıqlarda irəliləyişə nail ola bilərik. Çünki bu məsələlər Azərbaycan üçün də strateji əhəmiyyətə malikdir. Bizim öz daxili islahatlar prosesimiz, iqtisadi prioritet və təşəbbüslərimiz var. Bu səbəbdən qarşılıqlı faydalı yanaşma göstərilməli və saziş elə tərtib olunmalıdır ki, o, hər iki tərəfin ehtiyaclarına cavab versin".

Prezidentin köməkçisi NATO-Azərbaycan əlaqələrinin hazırkı vəziyyəti ilə bağlı danışarkən bildirib ki, "Azərbaycan NATO tərəfindən etibarlı və öz öhdəliklərinə sadiq bir tərəfdaş kimi qəbul edilir. Bu gün Azərbaycan əsgərləri NATO müttəfiq və tərəfdaş ölkələri ilə çiyin-çiyinə Əfqanıstanda terrorizmlə mübarizə aparır və bu ölkəyə sülh və əmin-amanlıq gətirməyə çalışır. Azərbaycan həmçinin NATO müttəfiq və tərəfdaş ölkələri üçün həyati əhəmiyyətli yüklərin nəqliyyatında tranzit və logistik qovşaq kimi də mühüm rol oynayır. Brüsselə səfər çərçivəsində biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, ümumi siyasi və regional məsələlər üzrə "29+1" (NATO + Azərbaycan) formatında müzakirələr apardıq".

Sonda "EURACTIV"in müxbiri Hikmət Hacıyevin yaxasına taxdığı nişanın nə olduğu ilə bağlı maraqlanıb. O isə cavabında bu nişanın Azərbaycanda baş vermiş Qara Yanvar hadisələrinin 30-cu ildönümünü simvolizə etdiyini bildirib. "Hələ sovet vaxtları idi və Sovet İttifaqının rəhbəri Mixail Qorbaçov Azərbaycanda fövqəladə vəziyyət elan edərək 26 min nəfərlik qoşunu Azərbaycana yeritdi. Yeganə məqsəd müstəqillik və azadlıq haqqında düşünən Azərbaycan xalqının iradəsini qırmaq, onu qorxutmaq idi. Tanklar və əsgərlər heç bir fərq qoymadan mülki etirazçılara qarşı gücdən istifadə etdi. Nəticədə 147 insan qətlə yetirildi, bir neçə yüz insan yaralandı. Onlar azadlıq, müstəqillik və ədalət istəyən günahsız mülki vətəndaşlar idilər. Bu, sovet rəhbərliyi tərəfindən kütləvi cəzalandırmanın bir elementi idi. Bu, müharibə cinayəti və bəşəriyyətə qarşı cinayət idi".

Azərbaycan Respublikası Prezidentinin köməkçisi müsahibəsində Şərq və Qərb arasında bağlantılar, "Şimal-Cənub" nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP və TAP kimi enerji layihələri və digər məsələlər haqqında da "EURACTIV"in oxucularına ətraflı məlumatlar verib.

# Azərbaycanın Avropa İttifaqına üzv ölkələrdə fəaliyyət göstərən səfirliklərinin işçi iclası olub

Azərbaycanın Belçikadakı səfirliyində Avropa İttifaqına üzv ölkələrdə fəaliyyət göstərən səfirliklərin işçi iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı Avropa ölkələrində təmsil edən 20-dən çox səfir iştirak edib.

Tədbirdə çıxış edən Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin xarici siyasət istiqamətləri və Avropa ölkələri ilə qarşılıqlı münasibətlərə dair tapşırıqları haqqında məlumat verib.

İclasda Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların Avropa ölkələrində tanıdılması, fevralın 9-na təyin edilmiş parlament seçkiləri ilə bağlı Avropa institutlarının effektiv şəkildə məlumatlandırılması və digər mövzular barədə müzakirələr aparılıb. Qeyd edilib ki, Avropanın seçkili orqanlarının rəsmi sənədlərində Azərbaycanın ərazi bütövlüyünü əks etdirən müddəaların əksini tapması istiqamətində bundan sonra da səmərəli iş aparılmalıdır.

# Avropa standartlarına çatmaq üçün Statistika Komitəsinə Aİ-nin dəstəyi üzrə layihə yekunlaşıb

## Dövlət Statistika Komitəsi Niderlandın Mərkəzi Statistika Bürosu ilə anlaşma memorandumu imzalayıb



Yanvarın 22-də Bakıda Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq çərçivəsində icrası başa çatan "Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi" texniki yardım layihəsinin yekunlarına həsr olunan konfrans keçirilib.






AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Sonra Şəhidlər xiyabanına gələn konfrans iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Konfransı Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov açıq elan etdikdən sonra Baş Nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxış ediblər.

Sonra tədbirdə layihənin qrup rəhbəri Rimantas Yuozas Vaicenaviçiusun "Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi layihəsi: qarşıya qoyulmuş məqsədlər və əldə olunmuş nailiyyətlər", ICON İnstitutunun Statistika şöbəsinin rəhbəri Roland Delemontun "Layihənin konsorsiumu: nəticələrə hesablanmış əməkdaşlıq", Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Qasım Əliyevin "Layihənin komponentləri: hədəflər və nəticələr" mövzularında təqdimatları nümayiş olunub.

Niderland Mərkəzi Statistika Bürosunun baş direktoru Tjark-Tsin-A-Tsoinin "Rəsmi statistikada istifadəçi tələblərinə cavab verən müasir strategiyalar", Litva Statistika Departamentinin baş direktoru xanım Jurate Petrauskienenin "Avropa Statistika Sisteminin inkişafında statistik proseslərin standartlaşdırılmasının rolu", Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarskinin "Rəsmi statistikanın inkişafında davamlı beynəlxalq əməkdaşlığın rolu" və BMT-nin Avropa İqtisadi Komissiyasının Statistika şöbəsinin regional məsləhətçisi Steven Valenin "Avropa statistikasının beynəlxalq statistika sisteminə töhfəsi" mövzularında məruzələri dinlənilib.

Qeyd olunub ki, "Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi" texniki yardım layihəsi Dövlət Statistika Komitəsinin Avropa İttifaqı ilə birgə həyata keçirdiyi iki Tvinniq layihəsindən sonra 3-cü layihədir. Ölkəmizin statistika sisteminin təkmilləşdirilməsində mühüm əhəmiyyətə malik olmuş bu layihə çərçivəsində tərəfdaş ölkə mütəxəssislərinin Dövlət Statistika Komitəsinə ekspert missiyaları təşkil edilib, Dövlət Statistika Komitəsinin əməkdaşları Niderland, Litva, Bolqarıstan, Portuqaliya və Rumıniyaya ezam olunaraq statistik təsnifatların tətbiqi, istehsalçı qiymət indeksləri, statistik keyfiyyətin idarə edilməsi sistemi və sair sahələrdə beynəlxalq təcrübəni öyrəniblər.

Konfransda eyni zamanda Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Niderlandın Mərkəzi Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalanması mərasimi də təşkil olunub. Anlaşma memorandumunu Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Niderland Mərkəzi Statistika Bürosunun baş direktoru Tjark-Tsin-A-Tsoi imzalayıblar.

Konfransda iştirakçıları və KİV nümayəndələrini maraqlandıran suallar da cavablandırılıb.

Qeyd edək ki, ölkəmizdə səfərdə olan Niderland, Litva və Bolqarıstan milli statistika qurumlarının rəhbərlərinin Azərbaycan Dövlət İqtisad Universitetinin professor-müəllim heyəti və tələbələri qarşısında Avropa və milli statistika sistemində baş vermiş son yeniliklərlə bağlı çıxışları da nəzərdə tutulub.

# Daxili İşlər Nazirliyində ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib





Yanvarın 22-də Daxili İşlər Nazirliyində (DİN) 2019-cu ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquq-mühafizə siyasəti sayəsində daxili işlər orqanlarında da fəaliyyətin təkmilləşdirilməsi, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlərin görüldüyünü qeyd edib. Diqqətə çatdırılıb ki, asayişin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması və digər sahələrdə qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası tam təmin edilib. Ölkəmiz cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ötən il də MDB və Avropa məkanında öncül mövqedə olub. Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı sabit qalaraq 265 fakt təşkil edib.

Hesabat məruzəsi ilə çıxış edən Daxili İşlər naziri deyib ki, 2019-cu ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26 min 672 cinayət qeydə alınıb. Onların 92 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub. Bu cinayətlərin 89 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

2018-ci illə müqayisədə qəsdən adam öldürmələr 5,4, adam öldürməyə cəhdlər 23,4, mülkiyyət əleyhinə olan cinayətlər 12, o cümlədən soyğunçuluqlar 3,9, quldurluqlar 2, dələduzluqlar 24,3, hədə-qorxu ilə tələb etmələr 25, avtonəqliyyat vasitəsinin qaçırılması faktları 15,5, habelə xuliqanlıqlar 13,4, ictimai yerlərdə baş verən cinayətlər 26, yetkinlik yaşına çatmayanların cinayətləri 30,1, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlər 1,3 faiz azalıb.

Eyni zamanda ağır və xüsusilə ağır cinayətlərin 87, şəxsiyyət əleyhinə olanların 97, onlardan qəsdən adam öldürmələrin 95, adam öldürməyə cəhdlərin 98, qəsdən sağlamlığa ağır zərər vurmaların 94, xuliqanlıqların 93, mülkiyyət əleyhinə olan cinayətlərin 73,4 faizinin, o cümlədən oğurluqların 65,4, dələduzluqların 94, soyğunçuluqların 84, quldurluqların 86, hədə-qorxu ilə tələb etmələrin 91, avtonəqliyyat vasitəsini qaçırmaların 81 faizinin, eləcə də prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 329 cinayətin açılması təmin edilib.

Məruzəçi 102 - Zəng Mərkəzi Xidmətinə daxil olan məlumatlar üzrə görülmüş operativ cavab tədbirləri ilə 2039 cinayətin "isti izlər"lə açıldığını, 7556 hüquqazidd əməlin qarşısının alındığını, "Təhlükəsiz şəhər" sisteminin imkanları ilə 575 cinayətin açıldığını vurğulayıb. Həmçinin təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi sahəsində görülmüş tədbirlərlə 3608 nəfərin tutulduğunu diqqətə çatdırıb.

Nazir qeyd edib ki, mütəşəkkil cinayətkarlıqla mübarizə də məqsədyönlü şəkildə həyata keçirilib və hesabat ilində 818 cinayətkar qrup zərərsizləşdirilib. Qeyri-leqal dövriyyədən bütövlükdə 1 ton 231 kiloqram narkotik vasitə çıxarılıb. Qeyri-qanuni kultivasiya edilən 127 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

Ötən il respublikanın hüquq-mühafizə orqanları tərəfindən 31 min 539 cinayət işindən 81 faizinin istintaqı daxili işlər orqanları müstəntiqləri tərəfindən aparılıb. Vətəndaşlara dəymiş 52 milyon manatdan çox maddi ziyanın 92,7 faizi məhz istintaq zamanı ödətdirilib.

General-polkovnik Vilayət Eyvazov qeyd edib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində Azərbaycan Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin icrası daim nəzarətdə saxlanılıb və tam yerinə yetirilib. Nazirliyin rəhbərliyi tərəfindən 4405, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 965 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həll olunub.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezidentin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi demokratik islahatların, böyük infrastruktur layihələrinin, sosialyönümlü proqramların uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Respublikamızda ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu eyni zamanda aidiyyəti Dövlət proqramlarından, Milli Fəaliyyət planlarından irəli gələn vəzifələrin ardıcıllıqla icra olunduğunu, cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahələrində uğurlar qazanıldığını qeyd edib. Xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyəti, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyi nəzərə çatdırılıb.

Məruzə ətrafında çıxış edən Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oqtay Kərimov, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Əbülfət Rzayev və başqaları hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran Daxili İşlər naziri Vilayət Eyvazov 2019-cu ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdırıb, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib. Qeyd olunub ki, 2020-ci ildə qarşıda çox mühüm vəzifələr durur. Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələr inkişaf etdirilməli, şəxsi heyət daha böyük əzmlə çalışmalı, peşəkarlığını yüksəltməlidir. Cari ildə ölkəmizdə keçiriləcək respublika və beynəlxalq əhəmiyyətli tədbirlərlə bağlı bütün təşkilati işlər vaxtında və yüksək səviyyədə yerinə yetirilməlidir.

Sonda general-polkovnik V.Eyvazov nazirlik sistemində maddi-texniki təminatın, xidmət şəraitinin daha da yaxşılaşdırılması, fəaliyyətin təkmilləşdirilməsi, sosial müdafiə işinin gücləndirilməsi üçün dövlət tərəfindən hərtərəfli kömək göstərildiyini məmnunluqla qeyd edərək, bu ali diqqətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əminliklə qeyd edib ki, qanunla müəyyən olunmuş vəzifələr bundan sonra da tam yerinə yetiriləcək.

# UNEC-də distant Çin dili kurslarını bitirən tələbələrə sertifikatlar təqdim olunub





Yanvarın 22-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş distant Çin dili kurslarını uğurla bitirən tələbələrə sertifikatlar təqdim edilib.



AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan UNEC-in rektoru Ədalət Muradov Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib. O vurğulayıb ki, Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin yüksək səviyyədə olmasına xüsusi diqqət verməsi bugünkü tədbirin uğurlu olmasını əsaslandırır. Rektor Çin dilinin distant tədrisi ilə bağlı təşəbbüslə çıxış etdiyinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür edib.

"Fondun təşəbbüsündən sonra UNEC-də Pekin Xarici Dillər Universiteti və Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu ilə birlikdə Çin dilinin tədrisinə başladıq. Sevindirici haldır ki, Çin dilinə maraq böyükdür. Bu dilin tədrisi ilə bağlı işləri davam etdirmək niyyətindəyik. Bizim bu dərslərə daha geniş auditoriyanı cəlb etmək imkanımız var" deyə rektor Ədalət Muradov bildirib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov çıxışında deyib ki, distant Çin dili kursları Heydər Əliyev Fondunun, xüsusilə Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunub. "Kursların təşkilinin nəticəsi olaraq gördük ki, Çin dilinin öyrənilməsinə böyük maraq var" deyə Heydər Əliyev Fondunun icraçı direktoru qeyd edib. Anar Ələkbərov distant Çin dili kursları təşəbbüsünün layihənin tərəfdaşlarının köməyi və dəstəyi ilə davam etdirmək niyyətində olduqlarını diqqətə çatdırıb.

Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndəsi Li Jingsong layihənin daha çox azərbaycanlıya Çin dilini öyrənməyə imkan verəcəyinə əminliyini ifadə edib. O xatırladıb ki, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə həm Azərbaycanda, həm də Çində bir çox layihələr reallaşdırılıb. Li Jingsong yekunlaşan kursun iştirakçılarının dərslərdə əldə etdikləri biliklərlə Çin dili bacarıqlarını daha da mükəmməlləşdirdiklərini vurğulayıb.

Tədbirdə Çin dili kursları üzrə dərslərə başlanılması ilə əlaqədar universitetdə keçirilən təqdimat tədbirini əks etdirən videoçarx nümayiş olunub.

Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov bildirib ki, icra olunan layihə Azərbaycan və Çin arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verəcək.

Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev tədbirə videobağlantı ilə qoşulub. O deyib ki, bu layihənin icrası Azərbaycan və Çin arasında olan tarixi münasibətlərdən yaranan zərurətdir.

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin direktoru Soltan Məmmədov təmsil etdiyi qurumun elm və təhsil sahəsindəki fəaliyyəti haqqında məlumat verib. Qeyd edib ki, layihə iki ölkə arasında yüksək səviyyədə olan iqtisadi, ticari, mədəni əlaqələrə müsbət təsir göstərəcək.

Sonda kursu bitirənlərə sertifikatlar təqdim olunub.

Xatırladaq ki, distant Çin dili kursları üzrə dərslərə 2019-cu il sentyabrın 28-də başlanılıb. Bununla əlaqədar universitetdə keçirilən təqdimat tədbirində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Çin dilini öyrənməyə yeni başlayan azərbaycanlılar üçün nəzərdə tutulan distant dil kurslarında dərslər 1,5 saat olmaqla həftədə 3 dəfə keçirilib. Distant təhsil üzrə təlimlər ödənişli əsaslarla aparılıb. Sosial cəhətdən dəstəyə ehtiyacı olan şəxslərin təhsil haqları isə Heydər Əliyev Fondu tərəfindən qarşılanıb. Dinləmək, danışmaq, oxumaq və yazmaq dərslərindən ibarət olan elementar səviyyəni bitirən iştirakçılar Çin dilinin ümumi qrammatik quruluşuna bələd olub, sadə fikir mübadiləsi aparmaq bacarığı əldə ediblər. Üç ay davam edən proqram üzrə təlimlər işdən ayrılmadan distant formada keçirilib.

Layihənin tərəfdaşları Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universitetinin nəzdindəki Konfutsi İnstitutu və Pekin Xarici Dillər Universitetidir.

# Əbülfəs Qarayev Bruklin-Bakı Dostluq Assosiasiyasının rəhbəri ilə görüşüb

Mədəniyyət naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan Bruklin-Bakı Dostluq Assosiasiyasının rəhbəri Marietta Rozental və AZZEM Beynəlxalq Fondunun prezidenti Oleq Mövsümovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə mədəniyyət sahəsində əməkdaşlıq əlaqələri və 2020-ci ildə həyata keçiriləcək layihələr barədə fikir mübadiləsi aparılıb.

Əbülfəs Qarayev Bruklin-Bakı Dostluq Assosiasiyası və AZZEM Beynəlxalq Fondunun Azərbaycan mədəniyyətinin, mədəni irsinin təbliğində rolunun yüksək qiymətləndirildiyini qeyd edib. Nazir hər il Bruklində keçirilən Beynəlxalq Dostluq Gününü qeyd edərək tədbirə böyük maraq olduğunu və Azərbaycanın bu tədbirlərdə yüksək səviyyədə təmsil olunduğunu bildirib.

Marietta Rozental hər il Bruklində Azərbaycan həftəsinin təşkil edildiyini, bu tədbirlər çərçivəsində Azərbaycan mədəniyyəti, ənənələri, milli mətbəx nümunələri, folkloru, musiqisi və rəqslərinin nümayiş olunduğunu qeyd edərək Mədəniyyət Nazirliyi tərəfindən tədbirlərin təşkilində göstərilən dəstəyə görə minnətdarlığını bildirib. O, əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Nazir Əbülfəs Qarayev ölkəmizin mədəniyyətinin təbliği istiqamətində Mədəniyyət Nazirliyi tərəfindən lazımi dəstək göstəriləcəyini vurğulayıb.

Daha sonra 2020-ci ildə həyata keçirilməsi nəzərdə tutulan layihələr barədə fikir mübadiləsi aparılıb.

## 9 fevral Milli Məclisə seçkilər günüdür

# Seçki mübahisələrinin məhkəmə qaydasında həlli mövzusunda layihəyə start verilib

Mərkəzi Seçki Komissiyasının Ali Məhkəmə və apelyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan regional seminar-müşavirələr başlayıb.



AZƏRTAC xəbər verir ki, layihənin gerçəkləşdirilməsində başlıca məqsəd 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərin yüksək səviyyədə təşkil olunub azad və ədalətli keçirilməsi üçün atılan bütün addımlarla yanaşı, seçki mübahisələrinin həlli istiqamətində də müvafiq məhkəmələrin və dairə seçki komissiyalarının məlumatının artırılması, bununla bağlı görülən işlərin effektivliyinin gücləndirilməsi və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasından ibarətdir.

Yanvarın 22-də Bakı şəhərində baş tutan layihənin açılışı və ilk seminar-müşavirə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun giriş nitqi ilə başlayıb. Sonra tədbirdə Ali Məhkəmənin hakimi Xəqani Məmmədov, Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyev və Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi çıxış ediblər.

Gündəliyə uyğun olaraq, açılış nitqlərindən sonra tədbir Mərkəzi Seçki Komissiyası, Ali Məhkəmə və Bakı Apelyasiya Məhkəməsindən olan təmsilçilərin "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarına verilməsi və onların araşdırılması qaydaları, Milli Məclisə seçkilərdə seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə icraat" mövzularında təqdimat və çıxışları ilə davam edib.

Mərkəzi Seçki Komissiyasının üzvləri və Katibliyin aidiyyəti struktur bölmələrinin əməkdaşları, region üzrə apelyasiya məhkəmələrinin hakimləri və dairə seçki komissiyaları sədrlərinin iştirak etdiyi tədbirin sonunda seçki mübahisələrinin məhkəmə qaydasında həlli ilə bağlı müxtəlif mövzular ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

Qeyd etmək lazımdır ki, seçki mübahisələrinin həllinə həsr olunan növbəti regional seminar-müşavirələrin paralel olaraq eyni vaxtda - yanvarın 24-də Gəncə, Naxçıvan, Şəki və Şirvanda regionlar üzrə müvafiq məhkəmə orqanları və seçki dairələrinin dairə seçki komissiyalarını əhatə etməklə keçirilməsi nəzərdə tutulur.

# Bütün namizədlərə bərabər şərait yaradılıb

Ölkəmizdə keçirilən seçkilərdə toplanan zəngin təcrübə, seçki prosesində şəffaflığın təmin olunması üçün görülən işlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Beynəlxalq ekspertlər respublikamızın mövcud qanunvericilik normalarını təhlil edərək artıq bu qənaətdədirlər ki, Azərbaycan şəffaf və demokratik seçki keçirmək təcrübəsinə yiyələnmişdir.



Bu imicin qarşıdan gələn parlament seçkilərində də saxlanılması üçün indi ölkəmizin hər yerində geniş hazırlıq işləri görülür. Bunu 103 saylı Gədəbəy seçki dairəsini əhatə edən məntəqələrdə də hiss etmək mümkündür.

Fevralın 9-da keçiriləcək parlament seçkilərində 103 saylı Gədəbəy seçki dairəsini əhatə edən məntəqələrdə 41 min 850 nəfər seçici səs verməlidir. Hazırda seçici siyahısında dəqiqləşdirmələr aparılır. Demək olar ki, məntəqələr seçki prosesi üçün tam hazırdır. 6 məntəqədə veb-kamera quraşdırılmışdır.

105 yaşlı Kubra Əsgərova söhbət zamanı dedi ki, sovetlər birliyi dövründə çox seçkilərdə iştirak edib. Həmin vaxtlarda səsverməyə candərdi gedərdi. Ancaq Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra keçirilən bütün seçkilərdə həvəslə iştirak edib. O, qarşıdan gələn parlament seçkilərində də gənclərə nümunə olmağı özünə şərəf bilir.

Məntəqələrdə seçkilərə hazırlığın vəziyyəti ilə bağlı 2 saylı seçki komissiyasının sədri Esmira Şirinova dedi ki, məntəqəni əhatə edən ərazidə 1349 seçici var. Onlardan 12 nəfəri ilk dəfə səs verəcək gənclərdir. Məntəqədə parlament seçkilərinin mütəşəkkil və demokratik keçməsi üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, 103 saylı Gədəbəy seçki dairəsində 8 nəfər deputat mandatı uğrunda mübarizə aparır. Seçkilərin gedişini izləmək üçün 440 nəfər müşahidəçi qeydiyyatdan keçmişdir. Namizədlərin təbliğat və təşviqat aparmaları üçün həm qapalı, həm də açıq yerlər ayrılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Demokratik ənənə formalaşıb

*Əvvəli 1-ci səh.*

Respublikamızda həyata keçirilən islahatlar Azərbaycanın iqtisadi inkişafı ilə bağlı daha sürətli irəliləmələri gündəmə gətirdi. O cümlədən Milli Məclisə seçkilərin keçirilməsi qərarı da bu istiqamətdə görülən işlər toplumunu da qabartdı. Bütün bunlar köklü dəyişikliklərin startı deməkdir və dövlət başçısının müvafiq sərəncam və fərmanları ilə artıq bir çox işlər həyata keçirilib.

Hazırda ölkəmiz Milli Məclisə seçkilərin keçirilməsinə hazırlaşır. Respublikamızın hər yerində deputatlığa namizədlər göstərilir və onlara demokratik qaydalara uyğun şərait yaradılır.

42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə 38 məntəqə fəaliyyət göstərir. Bu məntəqələrdən biri şəhər 3 saylı tam orta məktəbin binasında yerləşən 7 saylı seçki məntəqəsidir. Digər məntəqələrdə olduğu kimi, burada da seçicilərin rahat səs verməsi üçün bütün tələblər yerinə yetirilir. Məntəqə seçki komissiyasının katibi Nahidə Talehli bildirdi ki, qeydiyyatdan keçən namizədlərin nümayəndələri seçki məntəqəsində olub və hazırlığın gedişindən razı qalıblar.

Məntəqə seçki kommissiyasının üzvü Şəfiqə İsmayılova isə bildirdi ki, əhalinin siyahıya alınmasında həmin yaşayış binasının sakinləri də bizə kömək edirdi.

Ötən dövrlərdə Sumqayıtda keçirilmiş seçkilər əhalinin yüksək fəallığı şəraitində, demokratik, azad, şəffaf, ədalətli, qanunvericiliklə müəyyən edilmiş qaydada keçirilib. Vətəndaşların seçki hüquqları təmin olunub. Seçicilər üçün seçki hüquqlarının həyata keçirilməsi ilə bağlı lazımi şərait yaradılıb. İnanırıq ki, bu dəfə də belə olacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib





Yanvarın 22-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclası keçirilib. Əvvəlcə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunmuş Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimliyə, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoyluya, Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanova və Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadəyə yubiley medallarını təqdim edib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev iclasda AMEA-nın Humanitar Elmlər Bölməsinin və Şəki Regional Elmi Mərkəzinin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyətlərini əks etdirən hesabatlarının dinləniləcəyini diqqətə çatdırıb.

Sonra Humanitar Elmlər Bölməsinin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyəti barədə AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edib. İsa Həbibbəyli böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu ilin ölkədə "Nəsimi ili" elan etməsinin ölkəmizdə humanitar fikrə, ədəbiyyatımıza göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu deyib.

Akademik Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində layiqli yer tutan dahi şairin yaradıcılığının əhəmiyyətini təbliğ etmək məqsədilə Humanitar Elmlər Bölməsinin elmi tədqiqat müəssisələri ilə birgə fəaliyyət proqramı hazırladığını və bu istiqamətdə bir sıra təqdirəlayiq işlər görüldüyünü, tədbir çərçivəsində elmi sessiya, beynəlxalq elmi konfrans keçirildiyini, sərgi nümayiş etdirildiyini, bölmənin tərkibinə daxil olan institutların əməkdaşları tərəfindən Nəsimi irsinə dair bir sıra kitab və monoqrafiyaların nəşr olunduğunu diqqətə çatdırıb. Bildirilib ki, bölmənin müəssisələrinin müxtəlif dövlət qurumları, nazirliklər, ali təhsil müəssisələri, yerli və beynəlxalq təşkilatlarla birgə tədbirlər keçirilib, yubiley çərçivəsində institut əməkdaşları tərəfindən kollektiv biblioqrafik göstərici, fənn-proqramlar, 36 kitab, o cümlədən 16 monoqrafiya nəşr edilib, "Nəsiminin anadilli əsərlərinin ensiklopedik-izahlı lüğəti"nin I cildi çapdan çıxıb. Azərbaycan Respublikasının Bolqarıstandakı, Moldovadakı, Serbiyadakı səfirliklərinin təşəbbüsü və dəstəyi ilə Nəsiminin dünya dillərinə tərcümə edilmiş seçmə əsərlərindən ibarət kitabların təqdimat mərasimləri keçirilib.

AMEA-nın birinci vitse-prezidenti dövlət başçısının fərman və sərəncamlarının icra vəziyyəti, eləcə də ölkə başçısı tərəfindən Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri və mütəfəkkirlərinin yubileylərinin qeyd olunması ilə bağlı imzalanan sərəncamlarından irəli gələrək həyata keçirilmiş tədbirlər barədə söz açıb. Qeyd edilib ki, bundan başqa 2019-cu ildə bölmə üzrə müxtəlif sahələri əhatə edən 13 lüğətin, xüsusən də ictimaiyyətin gözlədiyi orfoqrafiya lüğətinin hazırlanması başa çatdırılıb. Orfoqrafiya lüğətinin fevral ayında çapı nəzərdə tutulur.

Hesabatda bölmə üzrə il ərzində 23 respublika elmi konfransının, 11 beynəlxalq elmi konfransın, 16 yubiley tədbirinin, üç "dəyirmi masa"nın keçirilməsinin də elmi mühitin canlandırılmasına səbəb olduğu göstərilir.

İclasda bölmə üzrə elmi tədqiqat işlərinin yerinə yetirilməsindən danışan akademik elektron elmin vəziyyəti, o cümlədən elmi tədqiqat xarakterli fəaliyyət sahələri üzrə müntəzəm olaraq institutların saytlarına materiallar yerləşdirildiyini qeyd edib. Məruzədə sosial şəbəkələrdə institutda keçirilən tədbirlər haqqında məlumatlar, ədəbiyyatşünaslığa dair maarifləndirici informasiya resurslarının yer aldığı vurğulanıb. Saytda jurnalların elektron variantlarını oxumağın və onlayn olaraq məqalə göndərməyin mümkün olduğunu nəzərə çatdıran akademik nəşriyyat fəaliyyətinə də toxunub.

Beynəlxalq əlaqələr barədə məlumat verən birinci vitse-prezident bölmənin elmi müəssisələrinin Özbəkistan, Türkmənistan, Türkiyə, Pakistan, Koreya və s. ölkələrlə elmi əməkdaşlıq əlaqələrindən söz açıb. Tədbirdə kadr potensialı barədə göstəriciləri diqqətə çatdıran akademik İsa Həbibbəyli Humanitar Elmlər Bölməsinin elmi tədqiqat müəssisələrində AMEA-nın yeddi həqiqi və altı müxbir üzvünün fəaliyyət göstərdiyini deyib. Bildirib ki, hazırda bölmənin elmi müəssisələrində 246 dissertant təhsil alır.

Sonra bölmənin tərkibinə daxil olan institutların direktorları rəhbəri olduqları müəssisələrin mühüm elmi nəticələri barədə çıxış ediblər.

Məruzə dinlənildikdən sonra müzakirələr aparılıb, suallar cavablandırılıb. AMEA-nın vitse-prezidentləri, akademiklər - Rasim Əliquliyev, Tofiq Nağıyev və AMEA-nın akademik-katibi, müxbir üzv Əminağa Sadıqov müzakirələrdə iştirak ediblər.

Rəyasət Heyəti təklifləri nəzərə alaraq Humanitar Elmlər Bölməsinin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyətinə dair hesabatı təsdiq edib. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə humanitar elmlərə dair dərslik və dərs vəsaitlərinin ərsəyə gətirilməsi ilə bağlı təkliflərin hazırlanması, humanitar elmlərin başqa elm sahələri ilə əlaqələrini möhkəmləndirmək məqsədilə baza təhsili dəqiq elmlər olan gəncləri humanitar yöndə tədqiqat aparmağa cəlb etmək üçün stimullaşdırıcı tədbirlərin görülməsi, o cümlədən ali məktəblərin son kurs tələbələri ilə ədəbi-mədəni görüşlər keçirilməsi tapşırılıb.

Qərarda bölməyə respublika elmi ictimaiyyətini yaxından cəlb etməklə Azərbaycan ədəbiyyatı, mədəniyyəti, incəsənətinin təbliği ilə bağlı məqalələrin impakt-faktorlu jurnallarda və ingilisdilli e-ensiklopediyalarda nəşr edilməsi, humanitar sahədə çalışan əməkdaşların dünyanın aparıcı ölkələrinin, o cümlədən Avropa, Rusiya və Türkiyənin qrant layihələrində iştirakının intensivləşdirilməsi, humanitar sahədə fəaliyyət göstərən alimlərin, xüsusən də gənc tədqiqatçıların "Clarivate Analytics" və digər beynəlxalq elmi bazaların imkanlarından geniş istifadəsinin təmin edilməsi və s. istiqamətlərdə tapşırıqlar verilib.

Gündəlikdəki növbəti məsələ AMEA-nın Şəki Regional Elmi Mərkəzinin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında olub. Hesabat məruzəsi ilə çıxış edən mərkəzin direktoru, fizika üzrə fəlsəfə doktoru Yusif Şükürlü bildirib ki, mərkəzin ötənilki fəaliyyətində Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabineti və AMEA Rəyasət Heyətinin qərarları, AMEA prezidentinin sərəncamları əsas götürülüb, habelə dövlət proqramlarının icrasından irəli gələn işlər yerinə yetirilib.

Hesabat ilində əldə olunan mühüm nəticələri diqqətə çatdıran mərkəz direktoru bildirib ki, əməkdaşların 5-i xaricdə olmaqla 27 elmi məqaləsi, 8-i xaricdə olmaqla 33 tezisi dərc olunub.

Tədbirdə Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən olan Məhəmməd Hadinin 140 illik yubileyinin qeyd olunması ilə bağlı tədbirlər planı təsdiq olunub.

Sonda AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev aidiyyəti üzrə müvafiq tapşırıqlarını diqqətə çatdırıb.

# Həzi Aslanovun anadan olmasının 110 illik yubileyi münasibətilə silsilə tədbirlərə start verilib





Yanvarın 22-də görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 110 illik yubileyi münasibətilə silsilə tədbirlərə start verilib.

AZƏRTAC xəbər verir ki, həmin gün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Şəhidlər xiyabanında, general Həzi Aslanovun məzar-abidə kompleksinin önündə xalqımızın igid oğulları sırasında adı qəhrəmanlığın rəmzinə çevrilən, dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə mahir hərbi sərkərdə istedadı nümayiş etdirərək hərb salnaməsinə yeni parlaq səhifələr yazan tank qoşunları generalının xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin general, zabit, gizir, kursant və əsgərləri, Təhsil və Mədəniyyət nazirliklərinin, xüsusi təyinatlı təhsil müəssisələrinin, Bakı qarnizonundakı hərbi hissələrin, veteran təşkilatlarının, qəhrəmanın adını daşıyan müəssisələrin, təhsil və mədəni-maarif ocaqlarının nümayəndələri, generalın ailə üzvləri iştirak ediblər.

Əvvəlcə məzar-abidə kompleksi önünə əklillər qoyulub, qəhrəmanın xatirəsi ehtiramla yad edilib, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin müşayiəti ilə Dövlət Himni ifa olunub.

"Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Müdafiə nazirinin əmri ilə yaradılan təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Həzi Aslanovun hərb tarixində müstəsna xidmətlərindən danışıb. O, Prezidentin sərəncamının təkcə bir qəhrəmana deyil, ümumiyyətlə, İkinci Dünya müharibəsi illərində müxtəlif cəbhələrdə vuruşan, Qafqazdan Berlinədək şanlı döyüş yolu keçən altı yüz mindən çox Azərbaycan övladının xatirəsinə böyük ehtiramın bariz nümunəsi olmaqla yanaşı, həm də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyətinin, eləcə də gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Nəzərə çatdırılıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, eləcə də Kremldə məsul vəzifə tutduğu vaxtlarda xalqımızın tarixinə sonsuz hörmətlə yanaşıb, əsrlər boyu torpaqlarımıza təcavüz edən yadelli işğalçılar qarşısında boyun əyməyən, diz çökməyən xalq qəhrəmanlarının, görkəmli hərbi sərkərdələrin hünər və rəşadətlərini yüksək qiymətləndirib, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində ata-babaların qəhrəmanlıq ənənələrindən bəhrələnməyi, bu ənənələri davam etdirməyi məsləhət görüb. Ulu Öndər əcdadlarımızın qəhrəmanlıq nümunələrinin bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olduğunu dəfələrlə qeyd edib. Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevə görə xalq öz qəhrəmanlıq tarixini öyrənmədən, qiymətləndirmədən yeni qəhrəmanlar yetişdirə bilməz. Gələcək qəhrəmanlıqların, igidliklərin təməli tariximizdədir, atalarımızın keçdiyi şanlı döyüş yolundadır.

Xatırlanıb ki, Ulu Öndər nəinki respublikamızda, həmçinin vətənimizin hüdudlarından uzaqlarda da Azərbaycan oğullarının qəhrəmanlıqlarının təbliği, adlarının əbədiləşdirilməsi, tanıdılması istiqamətində çox mühüm işlər görüb. Məhz Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Krımın Kerç rayonunda, Sapun-Qora yaxınlığında 77-ci, Rostov vilayətinin Taqanroq şəhərinin Sambek yüksəkliyində 416-cı Azərbaycan milli atıcı diviziyalarının şanlı döyüş yollarını əbədiləşdirmək məqsədilə möhtəşəm abidə kompleksləri yaradılıb. Həzi Aslanov, Mahmud Əbilov, Akim Abbasov, Məlik Məhərrəmov və bir çox general və zabitlərin yubileyləri dövlət səviyyəsində qeyd olunub, neçə-neçə Sovet İttifaqı qəhrəmanının ev-muzeyi yaradılıb və abidələri ucaldılıb.

Anım mərasimində vurğulanıb ki, Heydər Əliyev general-mayor Həzi Aslanovu Böyük Vətən müharibəsində döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisi kimi qiymətləndirərək "O, bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi keyfiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir", - deyib. Hər il respublikamızda 9 May - Qələbə Günü tədbirləri Ulu Öndər Heydər Əliyevin iştirakı ilə məhz Həzi Aslanovun məzar-abidəsi qarşısında keçirilən anım mərasimi ilə başlanardı. Bu ənənələr Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir.

Bildirilib ki, "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası istiqamətində Müdafiə, Təhsil və Mədəniyyət nazirliklərinin birgə tədbirlər planında il ərzində respublikanın bölgələrində, hərbi hissələrdə, təhsil və mədəniyyət müəssisələrində beynəlxalq konfransların, tank heyətləri arasında yarış-müsabiqələrin, fotosərgilərin, teatrlaşdırılmış kütləvi mərasimlərin, vətənpərvərlik filmləri həftəsinin keçirilməsi nəzərdə tutulub. İl ərzində Həzi Aslanovun keçdiyi döyüş yolu və adı ilə bağlı ünvanlara ekskursiyalar təşkil olunacaq, yeni kitablar, albom, plakat və açıqcalar nəşr ediləcək, qəhrəmanın tank və mexanikləşdirilmiş digər zirehli texnikalar sahəsində yenilikləri və hərbi elmi məqalələri əsasında sənədli tədris filmi çəkiləcək. Eləcə də Bakı Bələdiyyə Teatrında Abdulla Qurbaninin "Həzi Aslanov xatirələr işığında" pyesi tamaşaya hazırlanacaq. Bundan əlavə, faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunan beynəlxalq əsgər mahnıları festivalı iştirakçılarının Lənkəran şəhərinə səfəri və festival çərçivəsində qəhrəman həmyerlimizə həsr olunan konsert proqramının təşkili reallaşacaq. Rusiya Federasiyası "Zvezda" televiziya kanalının istehsalı olan "Ordu əfsanəsi Həzi Aslanov" filminin yaradıcı heyəti ilə görüş, respublika musiqi və teatr kollektivlərinin iştirakı ilə ədəbi-bədii gecə, Azərbaycan Dövlət Pedaqoji və İqtisad universitetlərində konfrans və kütləvi vətənpərvərlik tədbirinin keçiriləcəyi də planlaşdırılıb.

Anım mərasimində Həzi Aslanov irsinin tədqiqi və araşdırılmasında müstəsna xidmətləri olan Əməkdar incəsənət xadimi, tədqiqatçı-jurnalist Musa Bağırov, Respublika Veteranlar Təşkilatı sədrinin birinci müavini polkovnik Cəlil Xəlilov, Aslanovlar ailəsi adından qəhrəmanın nəvəsi Emin Aslanov çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

Tədbir Azərbaycan Bayrağı altında fəxri qarovulun Həzi Aslanovun abidəsi önündən təntənəli keçidi ilə başa çatıb.

# Adı və dadı ilə tanınan Naxçıvan meyvələri

Naxçıvan Muxtar Respublikasında meyvəçilik aqrar sektorun perspektivli və kənd əhalisinin əsas məşğulluq sahələrindəndir. Ərazinin əlverişli ekoloji mühiti və qədim təsərrüfatçılıq ənənələri burada özünəməxsus dada, keyfiyyətə, əmtəə görünüşünə malik olan, ilin ayrı-ayrı vaxtlarında yetişən müxtəlif meyvə sortlarının yaranmasına və becərilməsinə imkan verib.

Müasir dövrdə müxtar respublikanın aqrar siyasətində kənd təsərrüfatında becərilən meyvə bitkilərinin genofondunun toplanılması, sort müxtəlifliyinin qorunması, zənginləşdirilməsi, tətbiqyönümlü sortların əkin sahələrinin genişləndirilməsi, istehsalının təşkili və onlardan iqtisadi səmərə əldə edilməsi əsas strateji istiqamətlərdəndir. Muxtar respublikada əhalinin meyvə, tərəvəz və üzümlə dolğun təmin edilməsi, xaricə məhsul ixrac olunması, nəticədə kənd əhalisinin məşğulluğunun artırılması və maddi-rifah halının yüksəldilməsi qəbul edilən müvafiq dövlət proqramlarının əsas məqsədini təşkil edir.

Davamlı xarakter alan iqtisadi yüksəliş regionda aqrar sahənin inkişafını da sürətləndirmişdir. Məlum olduğu kimi, qədim Naxçıvan diyarının kənd təsərrüfatında meyvəçilik mühüm əhəmiyyət daşıyır. Naxçıvan alması, armudu, əriyi, göycəsi, üzümü Şərqdə həmişə məşhur olub və bölgəyə şərəf gətirib.

Azərbaycan Respublikası Prezidentinin "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 25 avqust 2008-ci il tarixli sərəncamında 2015-ci ilə qədər əhalinin müxtəlif meyvə məhsullarına olan tələbatının adambaşına 88,5 kiloqrama çatdırılması bir vəzifə olaraq qarşıya qoyulub və artıq yerinə yetirilib. Bu qərara müvafiq olaraq muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılması istiqamətində bir sıra dövlət tədbirləri həyata keçirilib. Naxçıvan MR Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", həmçinin 8 fevral 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" meyvəçiliyin genişləndirilməsinin, əhalinin yerli meyvə məhsulları ilə etibarlı təminatının, nəticədə iqtisadi sabitliyin başlıca meyarı olub. Qəbul edilən müvafiq dövlət proqramları muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaqla 2015-ci ildə ümumi meyvə istehsalı 45 min tona çatdırılıb, 2020-ci ildə isə 65 min tondan çox olması planlaşdırılıb.

Müasir dövrdə Naxçıvan MR-də meyvəçiliyin sənaye miqyasında daha da genişləndirilməsi sahəsində bir sıra məsələlərə toxunmaq istərdim. Bunlar meyvə genofondunun qorunması, öyrənilməsi, meyvə bağları sahələrinin genişləndirilməsi, meyvəçiliyin elmi-praktiki əsaslarının hazırlanmasıdır. Meyvəçilik üzrə fermer təsərrüfatlarının yaradılmasının müasir elmi əsaslarla təşkili, meyvəçi-aqronom kadrların bu işlərdə yaxın iştirakı, onların peşə hazırlığının mütəmadi yenilənməsi üçün Azərbaycan Dövlət Aqrar Universitetində ixtisasartırma kurslarına cəlb olunması mühüm əhəmiyyət daşıyır. Meyvəçilik üzrə ixtisaslaşdırılmış tinglik təsərrüfatlarının yaradılması, yerli və introduksiya edilmiş tətbiqyönümlü meyvə sortlarının əkin dövriyyəsinə daxil edilməsi də vacibdir. Eləcə də dağlıq, dağətəyi və Arazboyu düzənlik ərazilərdə landşafa uyğun iqtisadi əhəmiyyətli və tətbiqyönümlü tumlu və çəyirdəkli meyvə sortlarının müəyyənləşdirilməsi, mövcud bağların qaydaya salınması, boş torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi və yeni bağların salınması da gündəmə gəlir.

Həyata keçirilməsi vacib olan digər məsələlər meyvəçiliyin intensiv becərilmə texnologiyası əsasında genişləndirilməsi məqsədilə iqtisadi və sənaye əhəmiyyətli yeni meyvə sortlarının introduksiyası, meyvəçilik üzrə ailə təsərrüfatı və fermer təsərrüfatlarının genişləndirilməsi, inkişaf etdirilməsi, satış bazarlarına daha çox təzə yerli meyvə məhsullarının çıxarılmasına dövlət dəstəyinin artırılması, əhalinin yerli meyvə məhsulları ilə dolğun təminatının yaxşılaşdırılmasıdır. Sözügedən sahənin inkişafı həmçinin meyvəçilik üzrə innovativ texnologiyaya əsaslanan ilkin emal müəssisələrinin yaradılmasını, müxtəlif çeşidli konservləşdirilmiş məhsulların istehsalının yüksəldilməsini və ixrac məhsullarının həcm və növlərinin genişləndirilməsini tələb edir. İstehsal olunmuş ekoloji təmiz meyvə məhsullarının itkisiz toplanılması, qurudulmuş meyvə istehsalının təşkili və genişləndirilməsi, meyvə bağlarının suvarma şəbəkələrinin yaxşılaşdırılması, yerli rəqabət əsasında pərakəndə satışın təşkili və maliyyə-kredit problemlərinin həlli üçün dövlət dəstəyinin artırılması da önəm daşıyır.

Fikrimizcə, meyvəçilik üzrə rəqabətədavamlı ayrı-ayrı çeşidli məhsulların hazırlanması, onların reklamlarının təşkili, yerli bazara satışa çıxarılması və xaricə ixrac edilməsi üçün müasir texnologiya əsasında sənaye müəssisələrinin yaradılması lazımdır. Meyvəçiliyin genişləndirilməsində işlək istehsalçı-alıcı-satıcı şəbəkəsinin təşkil olunması, istehsal olunan meyvə məhsullarının kəndlərdə və şəhərlərdə ticarət obyektlərində pərakəndə satışlarının təşkili və belə tədbirlərin dövlət tərəfindən dəstəklənməsi işin xeyrinə olan məqsədyönlü tədbirlərdir. Sözügedən sahənin inkişafına, eləcə də meyvə bağlarına mərkəzləşdirilmiş fitosanitar xidmətin təşkili, xəstəlik və zərərvericilərə qarşı istifadə olunan dərman preparatlarının satışının, istifadə qaydalarının dövlət inhisarına alınması böyük dəstək verər. Meyvəçilik üzrə ixtisaslaşdırılmış fermer təsərrüfatlarının, "Ailə təsərrüfatı"nın dövlət tərəfindən dəstəklənməsi və genişləndirilməsi də bu sahədə irəliləyişə xidmət edir. Nəhayət, meyvə məhsullarından təzə halda bütün mövsümlərdə istifadə olunması üçün saxlama kameralarının, soyuducu anbarlar şəbəkəsinin genişləndirilməsi və onlardan məqsədyönlü istifadə edilməsinə, istehsalçılara mövcud saxlama anbarlarından bəhrələnmək üçün imkanların yaradılmasına üstünlük verilməlidir.

Bölgədə aqrar sektorun inkişaf etdirilməsi sahələri "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı", həmçinin "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" adlı rəsmi dövlət sənədlərində də öz əksini tapıb. Tarixən bu ərazidə müxtəlif genetik xüsusiyyətləri ilə fərqlənən meyvə, tərəvəz və üzümün zəngin genofondu yaradılıb. Muxtar respublika ərazisində tumlu meyvələrdən alma, armud, heyva, əzgil, yemişan, çəyirdəkli meyvələrdən albalı, gilas, şaftalı, ərik, alça, zoğal, ləpəli meyvələrdən isə qoz (ceviz), badam, fındıq, püstə, pekan və başqa qiymətli tətbiqyönümlü sortlar geniş yayılıb. Muxtar respublikada 200-dən çox meyvə sortları, 150-dən çox sort və formalardan ibarət üzüm genofondu mövcuddur. Müəyyən edilib ki, ərazidə tumlu meyvələrdən almanın 116, armudun 51, heyvanın 10, əzgilin 1, tutun 5, əncirin 4, narın 6, yemişanın 18 sortu, çəyirdəkli meyvələrdən gilasın 14, gilənarın 7, gavalının 14, zoğalın 1, alçanın 21, göyəmin 2, əriyin 31, şaftalının 14 sortu yayılıb. Ərazidə həmçinin qozun 26, püstənin 2, badamın 8, limonun 4 sortu yetişir. Bu zəngin genofondun səmərəli istifadə olunması ilə muxtar respublika əhalisini sitrus meyvə sortları istisna olmaqla, yerli məhsullar hesabına tumlu və çəyirdəkli meyvə sortları ilə dolğun təmin etmək mümkündür. Qeyd edək ki, muxtar respublikaya sitrus meyvələri istisna olmaqla tumlu və çəyirdəkli meyvələrin idxalının tədricən azaldılması, gömrük rüsumu qiymətləri ilə tənzimlənməsi yerli məhsulların istehsalının yüksəlməsinə stimul verər. Nəticədə satış bazarlarında becərilmə aqrotexnikası məlum olmayan, xəstəlik və zərərvericilərə qarşı mübarizədə hansı dərmanlardan istifadə olunması bilinməyən, həmçinin geni modifikasiya olunmuş meyvə sortlarının gətirilməsinin qarşısı alınar.

Hazırda muxtar respublikanın kənd təsərrüfatında yeni meyvə bağları salınmaqla çoxşaxəli istehsalçı-emal sənayesi - son məhsulun satışı kimi prioritet sahələrin gələcək inkişafını təmin edən müasir meyvəçiliyin bazasının əsasları yaradılır. Blokada vəziyyətində olan muxtar respublikada meyvəçilik əhalini ərzaq məhsulları ilə, emal sənayesini isə xammalla təmin etdiyindən regionda mühüm iqtisadi əhəmiyyət kəsb edən əsas məşğulluq sahələrindəndir.

Müasir tipli aqrotexniki vasitələrin alınması və aqroparkların yaradılması meyvəçiliyin genişləndirilməsində innovativ texnologiyanın tətbiqini və stimullaşdırıcı tədbirləri bir-biri ilə əlaqələndirir. İndiki dövrdə meyvəçilik üzrə əsas problem iri, xırda və orta müəssisələr qrupunun, habelə onların fəaliyyəti ilə bağlı olan təşkilatların bölgədə nizamlı fəaliyyətinin həyata keçirilməsidir. Buna uyğun olaraq sahibkarlara maarifləndirmənin təşkili, müvafiq informasiya-məsləhət xidməti şəbəkəsinin fəaliyyətinin artırılması, nəticədə rəqabətədavamlı ərzaq məhsulları istehsalının artırılması üçün strateji istiqamətlər müəyyənləşdirilib.

Meyvəçiliyin genişləndirilməsi istiqamətində məqsədyönlü praktiki işlər həyata keçirilir. Kəngərli rayonu ərazisində torpaq örtüyünün dəyişdirilməsi və kənardan əraziyə humus qatlı torpaq örtüyü gətirilməklə torpaqda münbit şərait yaradılıb, əraziyə mütərəqqi damcılı suvarma sistemləri çəkilməklə 50 hektardan artıq sahədə püstə bağı salınıb. Ümumilikdə son dövrlərdə kənd təsərrüfatına yararsız olan 213 hektar torpaq sahəsində meyvə ağacları əkilib. Naxçıvançay, Əlincəçay və Gilançay vadilərində 48 hektardan artıq sahədə, Arazboyu düzənlik ərazilərdə isə 49,8 hektar sahədə meyvə bağları, 4,5 hektarda isə üzüm bağı yaradılıb. Nehrəm kəndi inzibati ərazisinin şərq hissəsində indiyə qədər istifadəsiz qalan təpəliklərin şumlanaraq əkinə yararlı hala gətirilməsi nəticəsində 180 hektardan çox müasir tipli üzüm plantasiyaları salınıb. Tingçiliyin inkişafı da diqqətdə saxlanılıb, Şərur rayonunda iki sahibkar tərəfindən 4 hektar, Babək rayonunda bir sahibkar tərəfindən 0,5 hektar sahədə müxtəlif meyvə növlərinin məhsuldar sortlarından ibarət tinglər yetişdirilib, ümumilikdə təsərrüfatlarda 87 min ədəd tingin satışı həyata keçirilib, 73 min meyvə tingi isə əkin üçün hazır vəziyyətə gətirilib. Culfa rayonunun Dizə kəndində 0,3 hektar ərazidə 53000 ədəd üzüm tingi salınmaqla tingçilik təsərrüfatı yaradılıb.

Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına son illər muxtar respublika üzrə üzümçülüyün inkişaf etdirilməsi məqsədilə 8 layihənin maliyyələşdirilməsinə 179 min manat, 65 layihə üzrə meyvəçilik təsərrüfatlarının yaradılmasına 1 milyon 333 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib. 2019-cu il muxtar respublikada "Ailə təsərrüfatı ili" elan olunmuşdu. Şübhə yoxdur ki, bu qərar yeni meyvə bağlarının salınmasında və məhsul istehsalının genişləndirilməsində mühüm rol oynamışdır.

***VARİS QULİYEV,***
***aqrar elmləri doktoru***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 2019-cu ildə ölkə üzrə ÜDM istehsalı 2,2 faiz artmışdır




Dövlət Statistika Komitəsi xəbər verir ki, ilkin məlumatlara əsasən 2019-cu ildə ölkə üzrə ümumi daxili məhsul (ÜDM) istehsalı əvvəlki illə müqayisədə 2,2 faiz artaraq 8 milyard 1681 milyon manata çatmışdır.

Ötən il iqtisadiyyatın qeyri-neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,5, neft-qaz sektorunda isə 0,4 faiz artmışdır.

ÜDM-in 41,4 faizi sənaye, 10 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,3 faizi tikinti, 6 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 16,7 faizi digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 8,7 faizini təşkil etmişdir.

Keçən il əhalinin hər nəfərinə düşən ÜDM istehsalının dəyəri 8247 manat olmuşdur.

## Mərkəzi Asiya ölkələrinin aviaşirkətlərinin rəhbərləri gələn il Bakıya toplaşacaqlar

"Azərbaycan Hava Yolları" QSC-dən (AZAL) AZƏRTAC-a bildirilib ki, 2021-ci ildə Azərbaycanın paytaxtında Mərkəzi Asiya aviaşirkətlərinin rəhbərlərinin üçüncü "dəyirmi masa"sı keçiriləcək. Bu barədə qərar yanvarın 22-də Almatıda keçirilən sayca ikinci belə yüksəksəviyyəli tədbirdə qəbul edilib.

"Azərbaycan Hava Yolları"nı Almatıda keçirilən "dəyirmi masa"da AZAL-ın vitse-prezidenti Eldar Hacıyev təmsil edir. Aviasiyanın iqtisadi perspektivləri, Avropa İttifaqının (Aİ) rabitə sahəsində strategiyası, aviasiya yanacağı təchizatı sahəsində texnologiyalar və sair tədbirin əsas mövzuları sırasında idi.

Tədbirdə Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının aparıcı mütəxəssisləri, həmçinin Aİ-nin nümayəndə heyəti iştirak edib.

## 10 rayonda payızlıq əkinə dair məlumatların "Azərkosmos"dan çəkilişlər əsasında yoxlamaları başa çatıb



Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) payızlıq əkinlərə dair bəyan edilmiş məlumatların peykdən çəkilmiş fotolar, məsafədən zondlama metodları və digər stasionar vasitələrlə kameral yoxlamaları davam edir.

Peyk yoxlamalarının əsasını Kənd Təsərrüfatı Nazirliyinin Coğrafi Məlumatlar Bazasına daxil edilmiş ortofotolar, müxtəlif vektorizasiya məlumatları, "Azərkosmos"dan alınmış peyk şəkilləri, layihələrin nəticələri, məsafədən zondlama metodları təşkil edir.

Artıq ölkə üzrə 10 rayonda "Azərkosmos"dan çəkilmiş şəkillər əsasında yoxlamalar başa çatıb. Yoxlamalar hər rayonda təsadüfi yolla seçilmiş 3 kənd üzrə aparılıb. Peyk çəkilişləri ilə həmin rayonlar üzrə 9659 fermerin torpaq sənədləri və payızlıq əkinlə bağlı bəyan etdiyi məlumatlar yoxlanılıb. Yoxlamalar zamanı uyğunsuzluq şübhəsi doğuran sənədlərə dair bildirişlər göndəriləcək və həmin ərazilərdə yerində yoxlamalar aparılacaq. Yoxlamalar başa çatdıqdan sonra fermerin EKTİS-ə daxil etdiyi elektron bəyannamələr yekun olaraq təsdiqlənəcək və fermerə ödəniləcək məbləğ müəyyən ediləcək.

## 72300 vakansiya üzrə e-qaydada göndəriş verilmişdir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Məşğulluq" altsisteminə vakansiyaların daxil edilməsi ilə paralel olaraq, işsiz və işaxtaranlara bu vakansiyalar üzrə e-qaydada göndərişlərin verilməsi prosesi həyata keçirilir.

Ötən dövrdə altsistemə 85 minə yaxın vakansiya daxil edilmişdir ki, onlardan da 72300 vakansiya üzrə işsiz və işaxtaran vətəndaşlara e-qaydada göndərişlər verilmişdir. Hazırda həm qalan vakansiyalar üzrə göndərişlərin verilməsi, həm də "Vakansiya bankı"na işəgötürənlər tərəfindən yeni vakansiyaların daxil edilməsi prosesi davam edir.

İşəgötürənlər yeni iş yeri və boşalan iş yeri barədə məlumatları "Məşğulluq haqqında" qanuna əsasən ən geci 5 iş günü müddətində "Məşğulluq" altsistemindəki vakansiya bankına daxil etməlidirlər. Bununla onlar işçi qüvvəsinə olan tələbatların çevik şəkildə ödənməsi, vakant iş yerlərinə vaxt itkisi olmadan uyğun namizədi tapa bilirlər.

İşsiz və işaxtaranlar isə altsistemə daxil olaraq, peşə və ixtisaslarına uyğun vakansiyalar üzrə operativ şəkildə e-qaydada göndəriş əldə etmək, nəticədə hansısa quruma müraciət etmədən qısa vaxtda işlə təmin olunmaq imkanı qazanırlar.

## Azərbaycan məhsulları daha bir beynəlxalq sərgidə maraqla qarşılanıb

Berlində keçirilən "Beynəlxalq Yaşıl Həftə" ("International Green Week") sərgisində Azərbaycan məhsullarına böyük maraq var.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, sərgidə Azərbaycan istehsalı olan efir və bitki yağları, şərablar, nar şirələri, çaylar, o cümlədən müalicəvi bitki çayları, mürəbbələr və digər məhsullara maraq çoxdur.

Yanvarın 27-dək davam edəcək sərgi çərçivəsində Azərbaycan sahibkarlarının xarici həmkarlarla görüşləri, ixraca dair müzakirələri də təşkil olunur.

## Xəzər Həftəsi Konfransı çərçivəsində Bakı Limanının əhəmiyyəti qeyd edilib

Davosda keçirilən Xəzər Həftəsi Konfransında "Xəzər nəqliyyat dəhlizləri qlobal dəyişikliklər fonunda" panel müzakirəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nın baş direktoru Taleh Ziyadov çıxış edib.

QSC-dən AZƏRTAC-a bildirilib ki, Taleh Ziyadov Bakı Limanının "Şərq-Qərb" nəqliyyat dəhlizində (Orta dəhliz) mühüm yer tutduğunu deyib. Qeyd edilib ki, beynəlxalq logistika və nəqliyyat şirkətləri ilə əməkdaşlıq edərək Çinə və Mərkəzi Asiyaya daha çox yüklərin Venlo (Niderland)-İstanbul (Türkiyə)-Bakı Limanı (Azərbaycan)-Çin marşrutu ilə yollanması nəzərdə tutulub.

# Əhalinin artımı dövlətin sosial öhdəliklərini də artırır

### Prezident bu sahədə əlaqədar qurumlara beynəlxalq təcrübəni öyrənməyi tövsiyə edir

Azərbaycanda əhali əsasən təbii artım, yəni doğulan körpələrin sayının dünyasını dəyişən insanların sayını üstələməsi və qismən buraya daimi yaşamaq üçün köçüb gələnlərin hesabına çoxalır. Bunların hər ikisi müsbət haldır. Çünki bir sıra ölkələrdə, əksinə, ölənlərin sayı yeni doğulanların sayını üstələyir və orada artım barədə heç söhbət gedə bilməz. Mənfur qonşumuz Ermənistanda üstəlik əhali dəstə-dəstə ölkəni tərk edir.



Keçən ilin aprel ayında Azərbaycanın 10 milyonuncu vətəndaşı dünyaya gəldi. Dövlət Statistika Komitəsindən aldığımız son məlumata görə, 2019-cu il noyabrın 1-i vəziyyətinə əhalinin sayı 10 milyon 53 min 145 nəfər olub. İlin ilk 10 ayında əhali 71 min 688 nəfər, yaxud 0,7 faiz artıb.

Yanvar-oktyabr ayları ərzində 117 min 752 uşaq dünyaya göz açıb və onların sayı 2018-ci ilin müvafiq dövrünə nisbətən 1387 nəfər çox olub. Dünyasını dəyişənlərin sayı isə 46 min 403 nəfər təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1783 nəfər azdır.

Azərbaycanda miqrasiyanın saldosu da müsbətdir. Belə ki, həmin dövr ərzində ölkəyə daimi yaşamaq üçün 1693 nəfər gəldiyi halda, buradan köçüb gedənlərin sayı 1354 nəfər olub.

Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə əhalinin artmasını belə səciyyələndirib: "Əhali 100 min nəfər artıb və hər il 100 min nəfər artacaq. Nə qədər çox əhali artsa, növbəti illərdə illik artım da çoxalacaq. Biz indi bunu əhalisi sürətlə artan ölkələrin timsalında görürük. Bu, böyük problemlər gətirir. Artan əhali böyük üstünlükdür, təbiidir və eyni zamanda, bizim iqtisadi siyasətimizin və ölkədə mövcud olan sabitliyin təzahürüdür".

Dövlət başçısı eyni zamanda bunun özlüyündə böyük problemlər ehtiva etdiyini xüsusi vurğulayıb. Prezident əvvəlki çıxışlarında da dəfələrlə qeyd edib ki, əhalinin artımı qarşıya mühüm vəzifələr qoyur. Belə ki, dövlətin sosial-iqtisadi siyasəti həm də əhalinin artımına hesablanmalıdır. Bu səbəbdən də Azərbaycan dövləti yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluğunun təmin edilməsini daimi prosesə çevirib və həmin istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. Müəssisə və təşkilatlarda yaradılan iş yerlərindən əlavə, sahibkarlığın inkişafı, özünüməşğulluğun genişləndirilməsi, kənd təsərrüfatında tənəzzülə uğramış sahələrin yenidən bərpası bu qəbildən olan tədbirlərdir. Ölkədə çoxsaylı məktəblərin, uşaq bağçalarının, tibb müəssisələrinin istifadəyə verilməsi, idman qurğu və komplekslərinin getdikcə artırılması da bu məqsədə xidmət edir.

Keçən ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident yenidən bu mövzu üzərinə qayıdaraq əhalisi sürətlə artan ölkələrin problemlərinin təhlil edilməsinin vacib olduğunu bildirib. Qeyd edib ki, bu, təkcə İqtisadiyyat Nazirliyinin işi deyil. Nazirlər Kabineti, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlar məsələ ilə bağlı ciddi təhlil aparmalıdır.

Proqnoz öyrənilməli və ehtiyat mənbələri müəyyənləşdirilməlidir. Çünki dövlət başçısının dediyi kimi: "Bizim mövcud ərazimiz, əkin sahələrimiz, təbii resurslarımız bəllidir. Onların gələcəkdə dəyişməsi mümkün deyil. Ona görə bütün bunlar hesablanmalıdır ki, 20-30 ildən sonra hansı vəziyyətlə üzləşəcəyik".

Əhalisi sürətlə artan ölkələrin təcrübəsi də məhz bu baxımdan öyrənilməlidir. Beynəlxalq maliyyə qurumları ilə birlikdə uzunmüddətli strategiya işlənib hazırlanmalıdır. Onlar dünyanın bütün yerlərində fəaliyyət göstərirlər. Ona görə də bu sahədə böyük təcrübələri var.

İndi bizim vəsaitə ehtiyacımızın olmadığını deyən Prezident İlham Əliyev gələcəkdə yarana biləcək problemi də diqqətə çatdırıb: "Düzdür, bu gün bu problem mövcud deyil. Əhali artmalıdır. Amma bir gün bu, problemə çevriləcək. Ona görə bizim iqtisadi artımımız artan əhaliyə uyğun artmalıdır".

Azərbaycan dövləti dünyaya göz açan hər bir vətəndaşını, necə deyərlər, əliboş qarşılamır. Böyük infrastruktur layihələrinin həyata keçirilməsi, məktəbəqədər tərbiyə müəssisələrinin, təhsil və səhiyyə ocaqlarının istifadəyə verilməsi, idman komplekslərinin şəbəkəsinin genişləndirilməsi və s. həm də əhalinin artımına hesablanır. Lakin Azərbaycanda əhalinin artımı daha çox iş görülməsini gündəmə gətirir. Dövlət başçısının tələbi də məhz bu işlərin daha geniş miqyasda aparılmasıdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# İqtisadi inkişafın sürəti investisiya qoyuluşundan asılıdır

### İlin yekunları ilə bağlı müşavirədə bu məsələyə xüsusi diqqət yetirildi

*Əvvəli 1-ci səh.*



Məlumdur ki, kapital qoyuluşu həssas məsələdir. Bu üzdən özəl sərmayənin cəlb edilməsi üçün onun qorunması vacib şərtdir. Kapital qoyuluşunun qorunması yalnız mükəmməl hüquqi qanunvericilik bazasının təmin edilməsi ilə mümkündür.

İri infrastruktur və digər nəhəng iqtisadi layihələrin icrasında dövlət vəsaitindən kapital qoyuluşu kimi istifadə edilib. Nəticə göz qabağındadır. İndi Azərbaycanda nəqliyyat və digər infrastruktur layihələrinin yüksək səviyyədə olması inkişaf etmiş ölkələrlə müqayisə edilir. Hətta bu sahədə bir sıra inkişaf etmiş ölkələrdən öndəyik. Dövlət tərəfindən investisiyaların yatırılmasında əsas tələb səmərəlilik amillərinin sərtləşdirilməsi və bu investisiyaların prioritet sektorların inkişafı ilə sıx uzlaşdırılmasıdır.

İnvestisiyaların iqtisadiyyatın müxtəlif sahələrinə məqsədyönlü şəkildə qoyulması, elmi araşdırmalar aparılaraq yatırılması yüksək səmərə verir. Çünki əvvəlcədən dərin təhlil aparılmasa, istehsal edilən malın alıcısının olduğu müəyyənləşməsə, məhsulun satışında problem yaranar. Məhsul isə satıldıqda qoyulan investisiyanın səmərəsi olur. Bu məqsədlə ölkədə aparılan investisiya siyasətində bütün bunlar nəzərə alınır.

Qeyri-neft iqtisadiyyatının və ümumiyyətlə, qeyri-neft ixracının, o cümlədən iqtisadi artımın sürətləndirilməsinə dair həyata keçirilən siyasət sayəsində kənd təsərrüfatı və aqro klaster, neft-kimya sənayesi və bu sahəyə qoyulan irihəcmli investisiyalar səmərə verir. Hazırda bu sahələr üzrə böyük, kiçik və orta biznes klasterinin yaradılması nəzərdən keçirilir.

Dünya təcrübəsi göstərir ki, kiçik və orta sahibkarlığın inkişafı hər bir ölkədə iqtisadi dayanıqlılığın təminatında mühüm faktordur. Buna görə Prezident dəfələrlə çıxışlarında qeyd edib ki, ölkədə kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstək verməlidir. Məlumdur ki, bu məqsədlə güzəştli kreditlər ayrılarkən həmin kateqoriyadan olan sahibkarlara üstünlük verilir. Dövlət dəstəyi sayəsində son 16 ildə Azərbaycanda bu kateqoriyadan olan müəssisələrin sayı və istehsalda payı xeyli artıb.

Dövlət başçısı investisiyaların real sektora qoyulmasının əhəmiyyətini xüsusi vurğulayaraq onu da qeyd etdi ki, kənd təsərrüfatı sahəsində böyük potensialımız var. Xüsusilə kənd təsərrüfatı məhsullarının emalı diqqət mərkəzində olmalıdır. Yəni biz xammal ixracatçısından hazır məhsul ixracatçısına çevrilməliyik. Ötən il meyvə-tərəvəz istehsalında böyük artım qeydə alınıb. Lakin meyvə-tərəvəzin hazır məhsula çevrilməsi üçün kifayət qədər emal müəssisələrimiz yoxdur. Müxtəlif şirələr, kompotlar, konservlər və qurudulmuş meyvə istehsalı ilə məşğul olan sahibkarlara dəstək verilməlidir. Belədə ölkəmiz meyvə-tərəvəzi daha böyük həcmdə emal edərək hazır məhsul kimi xarici bazara ixrac etmək imkanı qazanar.

Aparılan iqtisadi islahatlar, real sektora investisiya qoyuluşu ötən ilin iqtisadi göstəricilərində də özünü açıq şəkildə əks etdirir. Belə ki, ümumi daxili məhsul 2,2 faiz artıb, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 14 faizə çatmışdır. Sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artmışdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Fitch Ratings Azərbaycanın reytinqini 'BB+' səviyyəsində təsdiq edib

**Fitch Ratings agentliyi Azərbaycanın uzunmüddətli xarici valyuta emitenti reytinqini 'BB+' səviyyəsində təsdiq edib. Reytinqə əsasən, Azərbaycanın xarici balans hesabatının, həmçinin borclarının az olması ölkənin iqtisadi-maliyyə sistemini gücləndirən amil kimi göstərilib.**

Azərbaycan 'BB' reytinqini formalaşdıran 6 komponent üzrə qeyri-proporsional nəticələrə malik olsa da, ölkəmiz bir çox komponentlər üzrə, xüsusilə Dünya Bankının "Doing Business" indikatorunda irəliləməsi ilə seçilib ki, bu da hesabatda xüsusi qeyd olunub. Hesabatda Azərbaycanın kredit reytinqinin stabil olaraq qiymətləndirilməsi Dünya Bankı və Davos İqtisadi Forumunun hesabatlarında ölkəmizin mövqeyinin yaxşılaşması göstəriciləri ilə uyğunluq təşkil edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) analitiki Ayaz Müseyibov hesabatda qeyd olunan bir neçə xüsusi məqama diqqət çəkib: "Yeni qiymətləndirmədə Azərbaycanın bank sisteminin 2015-ci ilin devalvasiyasından miras qalmış aktivlərin keyfiyyəti ilə bağlı problemlərdən sonra yenidən dirçəlməsi xüsusi qeyd olunub. Hesabatda bankların kapitallaşmasının 2018-ci illə müqayisədə 4 faizə yaxın artaraq 2019-cu ildə 23 faizə yüksəldiyi, problemli kreditlərin həcminin azaldığı, ölkənin ən böyük bankı - Azərbaycan Beynəlxalq Bankının isə mənfəətə çıxdığı qeyd olunub. Belə ki, 2018-ci ilin sonuna olan 14,5 faizlik göstərici ilə müqayisədə qeyri-işlək kreditlərin həcmi göstəriciləri 11 faizə enib. Bu isə hökumət tərəfindən xüsusi proqrama start verilməsi ilə bağlıdır".

A.Müseyibov həmçinin qeyd edib ki, geniş spektrli sanasiya tədbirlərinin görülməsi, toksik aktivlərin kredit portfelindəki xüsusi çəkisinin azaldılması, bankların valyuta mövqeyinin möhkəmləndirilməsi, likvidlik və kapitallaşma ilə bağlı minimum tələblərin yerinə yetirilməsi istiqamətində tədbirlər nəticəsində problemli aktivlərin ümumi kredit portfelində xüsusi çəkisi azalıb və kredit portfellərinin keyfiyyət əmsalı yüksəlib. "28 fevral 2019-cu il tarixində Prezident tərəfindən "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalanıb ki, bu da bank sektoru üçün




tamamilə yeni bir səhifə açmaqla bərabər, qeyri-işlək kredit portfelinin həcminin də əsaslı şəkildə azalması üçün möhkəm zəminlər yaradıb. Onu da qeyd edək ki, fərmanın ölkənin bank sektoru üçün əhəmiyyəti və problemli kreditlərin həlli məsələsində oynadığı rolunu digər nüfuzlu beynəlxalq reytinq agentliyi olan "Moody's" Beynəlxalq Reytinq Agentliyi də təsdiq edib" deyə o, bildirib.

Mütəxəssisin qənaətinə görə, agentliyin hesabatında qeyd olunan makroiqtisadi hesablamalar Azərbaycanın real ÜDM göstəricisinin artdığını və dünya neft qiymətləri böhranından sonra bərpa olunduğunu göstərir: "Hesabatda real ÜDM-in 2018-ci ilin 1,4 faiz göstəricisi ilə müqayisədə 2019-cu ildə 2,4 faizə çatdığı qeyd olunub. Xüsusi əhəmiyyət kəsb edən məqam isə ondan ibarətdir ki, agentliyin hesabatına əsasən bu artımın 3,5 faizi qeyri-neft, 0,8 faizi isə neft və qaz sektorlarının payına düşüb". Agentliyin 2020-2021-ci illərdə Azərbaycanda iqtisadi inkişafın 2,2 faizə çatacağını proqnozlaşdırdığını deyən A.Müseyibov qeyd edib ki, hesabatda həmçinin 2019-cu ildə ölkədə inflyasiyanın proqnozlaşdırıldığı kimi hədəf inflyasiya (4±2) çərçivəsində qərarlaşdığı göstərilib.

İİTKM-in analitikinin fikrincə, agentliyin hesabatında 2018-ci ildə qəbul olunan fiskal qaydaların ölkə iqtisadiyyatına müsbət təsiri, xüsusilə də neft gəlirlərinin xərclənməsi istiqamətində hökumətin davamlı addımları qeyd olunub. Fiskal siyasət qaydalarının və ortamüddətli xərclər çərçivəsinin qəbul olunması da bu baxımdan əhəmiyyətli amil kimi qiymətləndirilib.

"Hesabatda diqqət çəkən digər mühüm bir məqam isə Azərbaycanın reallaşdırdığı qlobal enerji layihələrinin, onun makroiqtisadi sabitliyinə və maliyyə dayanıqlılığına müsbət təsirinin qeyd olunmasıdır. 2020 xərc prioritetləri arasında icbari tibbi sığorta proqramının (ÜDM-in 1,1 faizi həcmində) yer aldığı və 2019-cu ildə əmək haqlarının artırılması tədbirlərindən və sosial təminatla bağlı ayırmalardan təsirlənəcəyi qeyd olunub" deyə A.Müseyibov bildirib. O habelə qeyd edib ki, hesabatda bir sıra region ölkələri üçün müxtəlif risklər ehtimalı olsa da, Azərbaycan üçün 2020-ci ildə də sosial və siyasi sabitlik proqnozlaşdırılır.

***"Azərbaycan"***

# Daxili bazar araşdırması üzrə KOB-lara dövlət dəstəyi göstərilir

**2019-cu ildə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) daxili bazar araşdırmaları üzrə KOB subyektlərindən daxil olmuş 8 müraciətə müsbət qərar verilib.**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Müraciətlər daxili bazar araşdırmasının aparılması üçün "Dövlət satınalmaları haqqında" qanuna uyğun olaraq, müvafiq prosedurdan sonra konsaltinq şirkətlərinə yönləndirilib. Daxili bazar araşdırmaları birdəfəlik plastik və kağız qabların, alüminium folqadan qapaqların, fındıq və quru meyvə batonlarının, kağız məmulatların və termal kağızların, mühafizə üçün texnoloji avadanlıqların istehsalı, eləcə də süd və süd məhsulları üçün avadanlıqlar, çörək istehsalı, turizm sektorunda nəqliyyat xidməti sahələrini əhatə edir.

Mikro sahibkarlıq subyektinin müraciəti əsasında aparılan hər bir daxili bazar araşdırmasına çəkilən xərcin 80, kiçik sahibkarlıq subyektinin müraciəti ilə həyata keçirilən araşdırmaya çəkilən xərcin 50 faizi dövlət tərəfindən qarşılanır. Orta sahibkarlıq subyektləri isə ödənişsiz təlim və seminarlardan, informasiya dəstəyindən yararlana bilər. Daxili bazar araşdırmalarının aparılması üçün dəstək tədbirləri KOBİA tərəfindən təşkil edilir.

Qeyd edək ki, Prezidentin müvafiq fərmanına uyğun olaraq, ölkəmizdə rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarının aparılması üçün mikro, kiçik və orta sahibkarlıq subyektlərinə informasiya və maliyyə dəstəyi göstərilir.



# QANLI YANVAR -30 İL



1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzinə çevrilmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu barədə demişdir: "20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir... Şübhəsiz ki, kədərimiz, qəmqüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər".

## Qəhrəmanlıq, rəşadət rəmzi

Xalqımız öz azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizədə igidlik, mətinlik, əyilməzlik nümayiş etdirirdi. Sözün əsl mənasında ötən əsrin səksəninci illərinin sonlarında Azərbaycanda geniş vüsət almış milli azadlıq hərəkatı keçmiş SSRİ rəhbərlərini ciddi narahat etməyə başlamışdı. Kreml nəyin bahasına olursa-olsun xalqımızın azadlıq, demokratiya arzularını beşikdəcə boğmaq, vətənpərvər insanları, azadlıq mücahidlərini susdurmaq üçün fürsət gözləyirdi.

Azərbaycana qarşı düşmən mövqe tutan qüvvələr 1987-ci ildə Ümummilli Lider Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmasından sonra daha da fəallaşdılar. Bədnam qonşularımız ölkəmizə qarşı torpaq iddiası irəli sürərək, vəziyyəti getdikcə gərginləşdirdilər.

Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ittifaq mərkəzinin birtərəfli mövqe tutması, Azərbaycanın haqq səsinə açıq şəkildə soyuqluq, biganəlik nümayiş etdirməsi xalqın ittifaq rəhbərlərinə inamını sarsıtmışdı.

1990-cı ilin əvvəlində hadisələr ən kəskin həddə çatdı. Kreml vəziyyətə nəzarət edə bilmədiyi üçün xalqımıza divan tutmaq yolunu seçdi.1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən 11 min nəfərlik sovet ordusunun xüsusi təyinatlı dəstələri, daxili qoşunların iri kontingenti Bakı şəhərinə daxil oldu. Ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni zabitləri, hətta kursantlar da daxil edilmişdi. Xüsusi amansızlıq, qəddarlıq, misli görünməmiş vəhşiliklərlə müşayiət olunan qanlı faciə nəticəsində Bakı şəhərində 131 mülki şəxs öldürüldü, 700 nəfərdən çox adam yaralandı.

SSRİ rəhbərliyinin göstərişi ilə hərbi birləşmələr paytaxtla yanaşı Sumqayıt, Lənkəran, Neftçala şəhərlərində də qanlı hadisələr törətdilər, əliyalın, günahsız insanları, azadlıq mücahidlərini qanına qəltan etdilər.

Törədilmiş faciə insan hüquqlarına dair beynəlxalq sənədlərin, ilk növbədə, "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nə, "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, keçmiş SSRİ və Azərbaycan SSR Konstitusiyasının tələblərinin kobudcasına pozulması demək idi.

Keçmiş SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə əsasən, SSRİ Ali Sovetinin Rəyasət Heyəti SSRİ-nin müdafiəsi və onun vətəndaşlarının təhlükəsizliyinin təmin olunması məqsədilə bütün ölkədə və ya onun ayrı-ayrı ərazilərində fövqəladə və ya hərbi vəziyyəti yalnız o halda elan edə bilərdi ki, bu məsələyə müttəfiq respublikanın Ali Sovetinin Rəyasət Heyəti tərəfindən baxılsın. Lakin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin bu məsələyə baxılmasına belə imkan verilməmişdir.

Bakıdakı qanlı faciədən dərhal sonra, yanvarın 21-də xalqımızın böyük oğlu, Ümummilli Lider Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq ailə üzvləri ilə birlikdə Azərbycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. O vaxt Moskvada təhsil alırdım. Azərbaycan KP MK Bürosunun və SSRİ Daxili İşlər Nazirliyinin kollegiya qərarları ilə SSRİ DİN-in İdarəetmə Akademiyasının birinci fakültəsində - müttəfiq respublikalar üçün rəhbər kadrlar hazırlayan fakültədə oxuyurdum.

Dağlıq Qarabağ ətrafında baş verən hadisələri diqqətlə izləyir, çox narahat olurdum. Moskvada yaşayan görkəmli azərbaycanlı alimlərlə, tanınmış ziyalılarla görüşür, fikirlərimizi bölüşürdük.

Ümummilli Liderin Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəlişinin şahidi və orada baş verən hadisələrin iştirakçısıyam. Ulu Öndər daimi nümayəndəliyə gələndə ətrafına yığışan həmyerlilərimizə və Azərbaycan xalqına faciə ilə əlaqədar başsağlığı verdi. Sonra ölkə və xarici jurnalistlərin, tədbir iştirakçılarının toplaşdığı zala daxil oldu.

Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin rəhbəri Zöhrab İbrahimov 20 Yanvar faciəsi barədə məlumat verdi. Ümummilli Lider Heydər Əliyev çıxışa başlayandan bir neçə dəqiqə sonra əvvəlcədən xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, Moskvada təhsil alan azərbaycanlı tələbə qız gözlənilmədən zala daxil oldu və dərhal yersiz suallarla Ümummilli Liderin çıxışına mane olmağa, tədbiri pozmağa cəhd göstərdi. Mən milis formasında olduğum üçün zala buraxılmışdım. Çoxlarında, xüsusilə orda iştirak edən və eyni zamanda daimi nümayəndəliyin əməkdaşlarında belə təsəvvür yaranmışdı ki, mən Moskva Şəhər Daxili İşlər Baş İdarəsinin rəhbərliyi tərəfindən ictimai asayişi qorumaq məqsədilə tədbirə göndərilmiş yüksək rütbəli zabitəm. Mən və bir neçə ziyalı dərhal həmin tələbə qıza bildirdik ki, bura belə yersiz sualların, söhbətlərin yeri deyil və zalı tərk etsin. Həmin tələbə qız mənim milis formasında asayişi qoruduğumu zənn edərək zaldan çıxdı.

Sonra Ümummilli Lider Heydər Əliyev öz çıxışını davam etməyə başladı. Bu zaman ikinci tələbə qız zala daxil olaraq yersiz, mənasız, tədbiri pozmağa yönəlmiş suallar verdi. Eyni qaydada onun da zaldan getməsini təmin etdik.

Maraqlısı budur ki, tədbirin əvvəlində heç bir maneə yaranmadı. Moskvanın xüsusi xidmət orqanları tərəfindən hazırlanmış bu iki tələbə gəncin məqsədi isə xalqımızın ağır günündə onun dərdinə şərik olmağa, başsağlığı verməyə, haqq səsimizi dünyaya çatdırmağa gəlmiş Ümummilli Lider Heydər Əliyevin verdiyi bəyanata mane olmaq idi.

Xalqımızın yeganə ümidi və pənahı olan Heydər Əliyev nümayəndəlikdə çox sərt bəyanatla çıxış etdi. Bakı şəhərində sovet rəhbərliyinin törətdiyi qanlı hadisələri pislədi, bunu bütöv bir xalqa qarşı zorakılıq, qəddarlıq, indiyədək görünməmiş cinayət adlandırdı. Xarici ölkə jurnalistlərinin gözü qarşısında sovet rəhbərlərini ittiham edərək təcavüzə kəskin etirazını bildirdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabancı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".

Ulu Öndərin bu qətiyyətli çıxışı Azərbaycanın informasiya blokadasına alındığı gərgin dövrdə totalitar rejimə, onun rəhbərlərinə sarsıdıcı zərbə oldu. Qorbaçovun və digər rəhbərlərin ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, təcavüzə məruz qalmış Alma-Ata, Tbilisi, Vilnüs və digər şəhərlərdə, xarici dövlətlərdə böyük rəğbətlə qarşılandı.

Azərbaycanın ağır günlərində Ümummilli Lider Vətəndə, xalqının yanında olmağı məqsədəuyğun bildi. 1990-cı il iyulun 20-də təyyarə ilə Moskvadan Bakıya gəldi, iyulun 22-də hakimiyyətin təhdidləri və təzyiqləri nəticəsində Naxçıvana getməyə məcbur oldu.

Müdrik rəhbərin "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" tələbi onun 20 Yanvar faciəsi barədə sonralar etdiyi bütün çıxışların, bəyanatların, imzaladığı sənədlərin leytmotivinə çevrildi. Ulu Öndər Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verən sənədin qəbul edilməsinə nail oldu. İlk dəfə olaraq faciə siyasi-hüquqi qiymətini aldı, cinayətin iştirakçılarının və təşkilatçılarının adları açıqlandı. Əlbəttə, bu, o dövrdə rəhbərdən böyük siyasi iradə, cəsarət və qətiyyət tələb edirdi.

Ümummilli Lider 1993-cü ilin iyun ayında xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. 1994-cü il mart ayının 29-da Milli Məclis geniş müzakirələrdən sonra "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi.

Sənəddə milli azadlıq hərəkatını boğmaq, xalqın iradəsini, inamını qırmaq üçün 20 Yanvar faciəsini təşkil etmiş Sov. İKP MK, sovet dövləti və hökumətinin rəhbərlərinin, o cümlədən, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olundu. Eyni zamanda hərbi təcavüzə görə respublika rəhbərlərinin məsuliyyət daşıdıqları, onların Azərbaycan xalqına qarşı xəyanət etdikləri sənəddə öz əksini tapdı.

Qanları ilə torpağa "Azadlıq" sözünü yazan şəhidlərimiz imperiyanın vandalizm, işğalçı, terrorçu, antihumanist siyasətinə qarşı əliyalın çıxmaqla xalqımızın mübarizə əzmini, igidliyini, qəhrəmanlığını bir daha təsdiqlədilər. Ümummilli Liderin dediyi kimi, "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdırlar, onlar millətimizin qəhrəmanlarıdırlar".

Azərbaycan Prezidenti cənab İlham Əliyev 13 dekabr 2019-cu il tarixdə "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncam imzalamışdır. 20 Yanvar hadisələrinə çox böyük diqqətlə, həssaslıqla yanaşan ölkə rəhbəri bu qanlı faciənin sovet rejiminin qəddarlığını, saxtalığını və iflasa uğradığını, xalqın azadlıq uğrunda mübarizlik əzminin möhkəmlənməsinə güclü təkan verdiyini önə çəkir, həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş, şəhidlik zirvəsinə ucalmış vətən övladlarının şücaətini yüksək qiymətləndirir.

1990-cı ilin yanvarında Azərbaycan xalqı öz iradəsini bütün dünyaya göstərdi. 20 Yanvar bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, yeni mərhələyə qədəm qoydu. Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan öz xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi yaşayır, inkişaf edir.

Qanlı Yanvar həm də müstəqillik tariximizin ən şərəfli bir səhifəsidir. Azadlıq, istiqlal uğrunda xalqımızın apardığı mübarizənin zirvəsi kimi çağdaş tariximizə əbədi həkk olunub. O müdhiş şənbə gecəsindən 30 il keçsə də xalqımız bu faciəni heç vaxt unutmur, ağrılarını yaşadır və onu törədənlərə dərin nifrətini bildirir.

***İbrahim QULİYEV,***
***Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor***





*Foto Ağaəli MƏMMƏDOVUNDUR*

## ABŞ konqresmenləri 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı bəyanat veriblər

20 Yanvar faciəsinin 30 illiyi ilə əlaqədar ABŞ Konqresində növbəti bəyanat verilib. ABŞ Konqresinin Xarici məsələlər komitəsinin üzvü Robert Aderholt faciə ilə bağlı bəyanatla çıxış edib.

Bəyanatda bildirilir ki, bu ay bizim dostumuz və müttəfiqimiz Azərbaycan Respublikası Qara Yanvar hadisəsinin 30 illiyini qeyd edir. Bu hadisə XX əsr ərzində davam etmiş işğalın, yəni Azərbaycan üzərində sovet idarəçiliyinin sonunun başlanğıcı kimi simvolizə olunur.

Bəyanatda həmçinin məlumat verilir ki, 19-20 yanvar 1990-cı il tarixində Azərbaycanın paytaxtı Bakı şəhərində zorakılıq zamanı sovet ordusu 100-dən çox azərbaycanlı nümayişçini qətlə yetirib, 700 nəfər yaralanıb. Sovet hərbçilərinin zorakılığına baxmayaraq, Azərbaycan əhalisi dinc etirazını 1991-ci il 18 oktyabr tarixində SSRİ-dən müstəqilliyini elan edənə qədər davam etdirib.

Konqresmen bəyanatında həmkarlarına səslənərək Azərbaycanda Qara Yanvar faciəsinin və azadlıq uğrunda canlarından keçmiş insanların xatirəsinin yad edilməsinə çağırıb, ABŞ-ın müttəfiq və tərəfdaşı Azərbaycanın yanında olduğunu vurğulayıb.

***

ABŞ Konqresindəki Azərbaycan üzrə İşçi Qrupun həmsədri, Nümayəndələr Palatasında Tennesi ştatını təmsil edən demokrat Stiv Koen 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı bəyanat verib.

AZƏRTAC xəbər verir ki, bəyanatda Azərbaycan tarixinin ən faciəvi hadisələrindən biri olan Qara Yanvar gecəsi anılıb, 1990-cı ilin 20 yanvarında təxminən 26 min sovet qoşununun Azərbaycanın paytaxtı Bakı şəhərinə tanklar və zirehli maşınlarla hücum etdiyi, qadın və uşaqlar daxil olmaqla dinc nümayişçilərin, günahsız azərbaycanlıların atəşə tutulduğu bildirilib. Bu amansız hərəkətlərin 147 insanın həyatını itirməsi, 800 nəfərin yaralanması, 841 nəfərin həbsi və 5 nəfərin itkin düşməsi ilə nəticələndiyi vurğulanıb.

Konqres üzvü "Human Rights Watch" təşkilatının "Azərbaycanda Qanlı Yanvar" hesabatına istinad edərək Bakıya hücum zamanı tibb personalına, təcili tibbi yardım maşınlarına, hətta xəstəxanalara edilən hücumlar daxil olmaqla ən pis insan hüquqları pozuntularına yol verildiyini vurğulayıb. Bu hadisənin hesabatda sovet ordusunun yalnız Azərbaycanda deyil, eləcə də digər Sovet İttifaqı respublikalarında millətçilərə qarşı bir xəbərdarlıq olduğu qeyd olunub.

Bəyanatda eyni zamanda ABŞ-ın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğu və 1992-ci ilin 28 fevralında diplomatik əlaqələri tam şəkildə qurduğu və bu əlaqələrin indiyədək davam etdiyi vurğulanıb. Konqres üzvü ABŞ və Azərbaycanın strateji müttəfiqlər olduğunu, qlobal və regional səviyyədə ümumi maraqları bölüşdüyünü bildirib.

Sonda İşçi Qrupumuzun həmsədri Azərbaycanın müstəqilliyi, azad bazar iqtisadiyyatı və demokratik dəyərlər uğrunda həyatını qurban vermiş şəxsləri bir daha yad edərək həmkarlarını bu faciəvi günü anmağa çağırıb.

## 20 Yanvar faciəsi Belçikanın və Avropanın paytaxtı Brüsseldə anılıb

20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Belçikanın Paytaxt Regionunun Hərbi komandanlığının iştirakı ilə Brüssel şəhərində yerləşən "Konqres sütunu" (Colonne du Congres) memorial kompleksinin yanında dəfn olunmuş Naməlum əsgərin məzarı önündə anım mərasimi təşkil olunub. Bu memorial kompleks 1830-cu ildən etibarən Belçikanın ictimai dövlət tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulmuş əsas tarixi məkan kimi tanınır.

Azərbaycan Respublikasının Belçika Krallığındakı səfirliyindən AZƏRTAC-a verilən məlumata əsasən, mərasimdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Belçikadakı səfirliyi və NATO yanında nümayəndəliyin əməkdaşları, həmçinin bu ölkədə yaşayan Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.

Mərasimdə çıxış edən Hikmət Hacıyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Bakıda törətdiyi qanlı faciə, bu hadisənin Azərbaycan tarixində yeri və nəticələri barədə məlumat verib. Sovet ordusunun törətdiyi qanlı hadisələrdən dərhal sonra Ulu Öndər Heydər Əliyevin Moskvada bu amansız cinayətə öz etirazını bildirdiyini xatırladan Prezidentin köməkçisi bütün bu proseslərin Azərbaycanın öz müstəqilliyinə doğru atdığı addımları sürətləndirdiyini, ölkəmizdə müstəqillik hərəkatının daha geniş vüsət almasına təkan verdiyini qeyd edib. Vurğulayıb ki, doğma Vətənin hazırkı inkişaf mərhələsində həmin günlərin tarixi təcrübəsinin nəzərə alınması xüsusi əhəmiyyətə malikdir.

Sonra Hikmət Hacıyev tərəfindən Belçika hərbçilərinin müşayiətilə Naməlum əsgərin məzarı önünə əklil qoyulub və əbədi məşəl alovlandırılıb, Azərbaycan Respublikası və Belçika Krallığının dövlət himnləri səsləndirilib.

Prezidentin köməkçisi mərasimin sonunda memorial kompleksinin xatirə kitabında 20 Yanvar faciəsi barədə qeydlər edib.

## Ədəbiyyatda qərənfil yağışlı misralar

20 Yanvar - Bakının qan gölünə çevrilməsi zaman keçdikcə yaddaşlarda daha silinməz izlər salır. Günahsız insanların o müdhiş şənbə gecəsində qanlarına qəltan edilməsinə "fərman" verənlər nifrətlə xatırlanır, imperiyanın diz çökməsi uğrunda əzmlə mübarizə aparan azadlıq aşiqləri (yaşından asılı olmayaraq), ölümün gözünə dik baxaraq şərəflə şəhidlik zirvəsinə yüksələnlər isə ehtiramla, məhəbbətlə anılır.

Tarixi hadisələr ictimai mahiyyətindən asılı olaraq, xalqın yaddaşına o zaman yazılır ki, sənət əsərlərinin də mövzusuna çevrilə bilsin. Bütün dövrlərdə istər münaqişələri, istər müharibələri, istərsə də digər fəlakətləri xalq necə yaşayıbsa, onun yetirdiyi yaradıcı övladları da həmin hadisələri bədii ifadə vasitələri ilə yaddaşlara yazıblar.

20 Yanvardan ötən 30 illik zaman məsafəsindən baxanda o günlərin müdhişliyi, vahiməliyi ilə yanaşı qəlbləri riqqətə gətirən, gəncliyin yenilməzliyinin, xalqımızın azadlıq səsinin heç bir imperiya cəlladları tərəfindən batırıla bilmədiyini görürsən. Təbii ki, hər bir xalq öz azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə meydanlarında mətinlik, əyilməzlik dərsi keçir. Qanları ilə torpağa "Azadlıq" yazan şəhidlərimiz imperiyanın vandalizm, işğalçı, terrorçu, bir sözlə, antiinsani, antihumanist siyasəti qarşısına əliyalın çıxmaqla xalqımızın mübarizliyini və əzmkarlığını təsdiqlədilər. Şəhidlər xiyabanının hər vaxt ziyarət yerinə çevrilməsi də məhz buradan irəli gəlir.

Şənbə gecəsinin səssiz fəryadları bədii sənət nümunələrində də öz əksini tapdı. Sözün ifadə edə bilmədiyini rəssamların qan daman fırçaları cızdı, Habil Əliyevin kamanı, Kamil Cəlilovun qaboyu şəhidlərimizə matəm və hüzn dolu "layla çaldı". Bu fəryada o gecədən şəhidlərimizin anası obrazına çevrilən Xalq yazıçısı Əzizə Cəfərzadənin dilindən qopan ağı-bayatılar, göylərə sovrulmuş ağ saçları qoşuldu... "Sən məni dəryaz kimi biç, nə qədər bacarırsan biç, amma mənim şəhidlərimin qanı torpağa toxum kimi düşüb. Hər yerdən boy verib cücərəcək:

*Arazam, keç üstümdən,*
*Keç, karvan, keç üstümdən.*
*Bu dərdi mən əkmişəm,*
*Dəryaz al, biç üstümdən".*



Həmin o müdhiş gecə xalqımızın poeziya dilli Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Mədinə Gülgün, Məmməd Aslan, Cabir Novruz, Tofiq Mütəllibov, Şahmar Əkbərzadə, Nüsrət Kəsəmənli, Fikrət Qoca və digər vətənpərvər söz və qələm adamlarının misralarından boy verib boylandı, dağ-daşı yandırdı...

Şəhidlər xiyabanını al-qırmızıya bələyən qərənfillər Məmməd Aslanın qələmində ağladı. Qərənfil yağışlı, matəm baxışlı misralar anaların ağısına qarışdı:

*Bu günahsız qanlara,*
*Bu didilmiş canlara,*
*Bu cansız cavanlara,*
*Ağla, qərənfil, ağla.*

Bəxtiyar Vahabzadənin özü meydanda, düşmənə nifrət nidalı misraları isə xiyabanda fəryad qoparırdı:

*Şəhidlərin hamısı bənzəyir bir-birinə,*
*Bir bax qəbirlərinə!*
*Hamısı qıpqırımızı qərənfilə bələnmiş,*
*Hamısı bir biçimdə, bir boyda cərgələnmiş,*
*Səbəb birdir, əməl bir, hədəf birdir, hədə bir!*

Bədii əsərlərdə şəhidlərin ölməzliyini və müqəddəsliyini təsdiq edən obrazlar yaradıldı. Təkcə poeziyada, nəsr və ya səhnə əsərlərində deyil, incəsənətin ayrı-ayrı növlərində 20 Yanvar aparıcı mövzuya çevrildi. Rəssamlıq sahəsində bu şərəfli tariximiz daha canlı, qanlı və obrazlı təsvir edildi.

Xalqımızın qan yaddaşına yazılan belə hadisələr az olmayıb. 20 yanvar 1990-cı il tarixi də yaddaşlara məhz qanla yazıldı. Təbii ki, imperiya caynaqlarından qurtarmaq o qədər də asan deyildi. Azadlığın verilmədiyi və zorla, qan bahasına alındığını da bura əlavə etməklə deyə bilərik ki, 20 Yanvar xalqımızın yaşadığı müsibətlər və faciələr silsiləsindən biri olsa da, qürur və iftixar mənbəyi, haqqın hayqırtısı, milli oyanış, birlik, əsl həmrəylik günüdür!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İtaliya qəzetində Azərbaycan səfirinin erməni yalanlarını ifşa edən cavab məktubu dərc olunub

Yanvarın 17-də İtaliyanın tanınmış “La Verita” qəzetində jurnalist Gianluca De Maionun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, xüsusilə qanlı 20 Yanvar hadisələri ilə bağlı erməni tərəfinin mövqeyini əks etdirən, ölkəmizə qarşı qərəzli və yalan məlumatların yer aldığı “Ermənilərin Azərbaycan tərəfindən gizlədilən qətliamı” adlı məqaləsi dərc edilib.




AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin “La Verita” qəzetinin redaksiyasına ünvanladığı cavab məktubu tam şəkildə dərc olunub. Səfirin cavab məktubunda bildirilir: “Mətbuatın italyan oxucularına çox da tanış olmayan tarixi məqamlara diqqət ayırması həmişə maraqlıdır. Ancaq təəssüflə bildiririk ki, cavab hüququndan istifadə etməklə dərc olunmasını xahiş etdiyimiz bu məktubumun səbəbi müəllifin hadisələri dərindən araşdırmadan Azərbaycan üçün faciələrlə dolu bir tarixi dövrü təsvir etməsidir.

Bununla əlaqədar olaraq qeyd etmək istərdik ki, məqalədə müəllifin erməni propaqandasından qaynaqlanan məlumatlarla həqiqətdən uzaq bir şəkildə xatırlatdığı məhz bugünkü 20 Yanvar tarixində Azərbaycan Qara Yanvarın 30-cu ildönümünü anır. Ermənistanın bu propaqandasının məqsədi Ermənistan tərəfindən Azərbaycana qarşı başladılmış, çağdaş tarixdə Azərbaycan xalqına qarşı ən qanlı qırğınlardan biri olan Qara Yanvar hadisələrinin də daxil olduğu faciəli hadisələrə səbəb olan Dağlıq Qarabağ münaqişəsinin köklərini və mahiyyətini gizlətmək və təhrif etməkdir.

Həqiqət budur ki, 1990-cı il yanvarın 19-u gecə Sovet İttifaqının ovaxtkı prezidenti Mixail Qorbaçovun göstərişi ilə sovet ordusunun 30 minə yaxın əsgəri Bakıya doğru irəlilədi. Dəniz də daxil olmaqla bütün istiqamətlərdən genişmiqyaslı hərbi əməliyyat silahsız sakinləri, istisna edilmədən qadınları, qocaları və körpələri hədəf almağa yönəldilmişdir; hətta təcili tibbi yardım maşınlarının sürücüləri və həkimləri vəhşicəsinə öldürülmüşdür. Zirehli tanklar və hərbi nəqliyyat vasitələri içərisindəki insanlardan asılı olmayaraq mülki və təcili yardım maşınlarını əzdilər. Hücum 147 mülki şəxsin ölümünə, 800-ə yaxın insanın yaralanmasına səbəb oldu.

Qoşunların Bakıya və ölkənin digər şəhərlərinə daxil olmasında əsas məqsəd SSRİ tərəfindən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın xeyrinə birtərəfli, qərəzli və yolverilməz siyasətə qarşı başlanan dinc nümayişlərin boğulması ilə əhalini susdurmaq idi.

“Human Rights Watch” təşkilatı “Azərbaycanda qara Yanvar” adlı hesabatında qeyd edir ki, həqiqətən 19-20 Yanvar gecəsində sovet ordusu tərəfindən törədilən zorakılıq azərbaycanlıların göstərdiyi müqavimətə nisbətdə o qədər qeyri-bərabər idi ki, bu, kənardan kollektiv cəza kimi görünürdü.

Qara Yanvar XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı Dağlıq Qarabağın Azərbaycan bölgəsinə ərazi iddiaları və 250 min azərbaycanlının Ermənistandakı tarixi torpaqlarından didərgin salınması ilə başlayan prosesin bir hissəsidir.

Bunun ardınca Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başladı, bu da Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil olmaqla Azərbaycanın 20 faizinin hərbi işğalına, işğal edilmiş ərazilərdə 750 min nəfər azərbaycanlıya qarşı etnik təmizlənməyə və həmin ərazilərdə Azərbaycanın tarixi abidələrinin dağıdılmasına gətirib çıxardı. Ermənistan beynəlxalq humanitar hüququ ciddi şəkildə pozdu və çoxsaylı müharibə cinayətləri, o cümlədən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə münaqişənin ən faciəvi hadisəsi olan, Ermənistan ordusu tərəfindən 613 azərbaycanlı mülki şəxsin qətlə yetirildiyi Xocalı soyqırımını törətdi.

Müəllif mövzunu araşdırsaydı, münaqişə barədə beynəlxalq sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının ərazilərimizdən Ermənistan qoşunlarının çıxarılmasına, azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılmasına dair Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 4 qətnamə barədə də məlumat əldə edə bilərdi.

Azərbaycan tarixən müxtəlif din və millətlərin sülh və harmoniya içində yaşadığı bir ölkədir və Azərbaycanın multikulturalizm modeli beynəlxalq səviyyədə bir nümunə kimi qiymətləndirilir. Ermənistan istər Ermənistanın özündə, istərsə də Azərbaycanın işğal olunmuş ərazilərində azərbaycanlılara qarşı etnik təmizləmə aparsa da, həmin ərazilərdə Azərbaycana məxsus bütün tarixi və mədəni irsi məhv etsə də, ölkəmizdə on minlərlə erməni mənşəli vətəndaşlar digər vətəndaşlarla eyni hüquqlara malikdir, Bakının mərkəzində dövlətimiz tərəfindən təmir edilmiş erməni kilsəsi mövcuddur və orada 5 mindən çox erməni dilində kitab qorunur.

Qara Yanvar zamanı, habelə Dağlıq Qarabağ münaqişəsi kontekstində baş verən hadisələrin məqalədə verilmiş formada təsviri şəhidlərin xatirəsinə və işğal edilmiş ərazilərdə öz yaxınlarının məzarlarını ziyarət etmək imkanından məhrum olan 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün hisslərinə hörmətsizlikdir.

Bizim məqsədimiz qəzetinizin adında (“La Verita’” italyanca həqiqət deməkdir) qeyd olunduğu kimi, oxuculara həqiqəti çatdırmaqdır”.

Səfirin dərc olunmuş cavab məktubu ilə bu keçiddən tanış olmaq mümkündür:

**https://www.laverita.info/non-criminalizzate-i-martiri-azeri-2644879300.html.**

# Milli Məclisə deputatlığa namizədlərin və səlahiyyətli nümayəndələrinin nəzərinə

09 fevral 2020-ci il 6-cı çağırış Milli Məclisə seçkilərlə əlaqədar deputatlığa namizədlərin “Azərbaycan” qəzetində ödənişli əsaslarla dərc olunacaq reklam materiallarının 1(bir) kvadrat santimetr üçün qiyməti səhifələrdə yerləşdirilməsindən, təkrarlığından və həcmindən asılı olaraq 1.5 manatdan 3.5 manatadək (ƏDV xaric) müəyyən olunmuşdur.

Daha ətraflı məlumat almaq üçün 012-539-49-20 nömrəli telefonla əlaqə yaratmaq olar.

***“Azərbaycan” qəzeti redaksiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 14.01.2020-ci il tarixdə keçirilmiş LOT-1 “Bakı Metropoliteni” QSC üçün müxtəlif növ elektrik mallarının “Açıq Tender” üsulu ilə satın alınmasına dair müsabiqədə “ELECTRO SERVİCE” QSC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 17.01.2020-ci il tarixdə ƏDV daxil 407431,95 (dörd yüz yeddi min dörd yüz otuz bir manat 95 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## “Azərişıq” ASC-nin sədri Siyəzəndə vətəndaşları qəbul edəcək

Yanvarın 23-də “Azərişıq”ASC-nin sədri Vüqar Əhmədov Siyəzən rayonunda vətəndaşları qəbul edəcək. Səhmdar cəmiyyətin müvafiq qurumlarının rəhbərlərinin də iştirak edəcəyi qəbulda Siyəzən və Xızı rayonlarından olan vətəndaşların müraciət və təklifləri dinləniləcək.

***“Azərbaycan”***

## Yanvarın 24-də Bakıya mövsümün ilk qarının yağacağı gözlənilir

Yanvarın 24-də şimaldan gələn soyuq hava kütləsinin ölkə ərazisinə daxil olması nəticəsində ilkin proqnozumuza görə, paytaxt sakinləri bu qış fəslinin ilk qarını müşahidə edə bilərlər.

Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva məlumat verib.

Departament direktorunun sözlərinə görə, yanvarın 23-də güclü cənub-qərb küləyi əsəcək, yanvarın 24-də güclü şimal-qərb küləyi ilə əvəzlənəcək: “Bakıda və Abşeronda yanvarın 24-dən 25-i səhərədək havanın yağıntılı keçəcəyi gözlənilir. Yağıntının arabir intensivləşəcəyi, yanvarın 24-dən 25-nə keçən gecə bəzi yerlərdə yağışın sulu qara keçəcəyi ehtimalı var. Yanvarın 24-də havanın temperaturu ötən günlərlə müqayisədə 4-6° enəcək, 0-3° isti olacaq.

Azərbaycanın rayonlarında yanvarın 23-ü axşamdan 25-dək ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, qeyri-sabit keçəcəyi proqnozlaşdırılır. Havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Yanvarın 23-24-də güclü külək olacaq, 23-də cənub-qərb küləyinin sürəti saniyədə 15-20, arabir 23-28, ayrı-ayrı yerlərdə arabir 30-35 metrə çatacaq. Yanvarın 24-də isə şimal-qərb küləyi 15-20, arabir 25-30 metr/saniyəyə kimi güclənəcək.

Avtomobil yollarında dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimal edilir”.

# Beynəlxalq aləm

## Rusiya aviasiyası İdlibi və Hələbi bombalayır



Rusiya qoşunları Suriyaya aviasiya zərbələri endirməkdə davam edir. Sonuncu hava hücumu nəticəsində azı 40 nəfər həlak olmuşdur. Bu barədə “Röyter” agentliyi xəbər verir.

Məlumata görə, Hələb şəhərinin yaxınlığında 8 nəfərdən ibarət ailə həlak olmuşdur. Onların altısı uşaqdır. Daha 9 dinc sakin İdlib əyalətində öldürülmüşdür.

Bundan əlavə, Kfar Təəl kəndində bir ailə qətlə yetirilmiş, daha 9 dinc sakin İdlib əyalətinin cənub-şərqində yerləşən Maardabsda həlak olmuşdur.

Ümumilikdə yanvarın 16-dan bəri hücumlar nəticəsində 47 hərbi qulluqçu və 51 mülki şəxs həlak olmuşdur.

## Burkina-Fasoda silahlı hücum nəticəsində 36 nəfər həlak oldu



Burkina-Fasonun şimal-mərkəz hissəsində iki kənddə naməlum şəxslərin silahlı hücumu nəticəsində 36 nəfər həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Məlumata görə, naməlum cinayətkarlar Almau və Naqraoqo kəndlərində silahlı hücum etmişlər. Onlar Naqraoqo kəndində məktəbə atəş açıb 32 nəfəri qətlə yetirmişlər. Daha 4 nəfər Almau kəndində öldürülmüşdür.

Ölkədə üçgünlük matəm elan olunmuşdur.

## Çində 440 nəfər yeni koronavirusa yoluxub



Çində 440 nəfərin yeni tipli koronavirusa yoluxması halı təsdiqlənmişdir. Xəstəlikdən ölənlərin sayı 9 nəfərə çatmışdır. Bu barədə Çin Xalq Respublikasının Sağlamlıq və Gigiyena Məsələləri üzrə Dövlət Komitəsi sədrinin müavini Li Bin məlumat vermişdir.

Məmurun dediyinə görə, hökumət yoluxmanın ocağının yerləşdiyi Uxan şəhərinə Dünya Səhiyyə Təşkilatından, Honq Konq və Makao xüsusi inzibati rayonlarından, habelə Tayvandan mütəxəssislər dəvət etmişdir. Onlar xəstəliyin yayılması ilə bağlı vəziyyəti, habelə həyata keçirilən profilaktik və nəzarət tədbirlərini yerindəcə öyrənəcəklər.

Li Bin həmçinin vəd vermişdir ki, hökumət virusun yayılması məsələsində beynəlxalq əməkdaşlığı və təmasları dəstəkləyəcək, vəziyyətlə bağlı məlumatı müntəzəm olaraq açıqlayacaq.

## Yunanıstanın Prezidenti ilk dəfə qadın olacaq



Yunanıstan parlamenti ölkə Prezidenti vəzifəsinə Yekaterini Sakellaropulunun namizədliyinə səs vermişdir. Bu barədə TASS agentliyi xəbər verir.

Konstitusiyaya uyğun olaraq, parlament dövlət başçısı vəzifəsinə namizədi seçmək üçün beş tur səsvermə keçirə bilər. Birinci turda 300 yerlik birpalatalı ali qanunvericilik orqanının 200 deputatının səsi tələb olunur. Sakellaropulu artıq birinci turda seçilmişdir. Onun namizədliyini iclasda iştirak edən 294 deputatdan 261-i dəstəkləmişdir. Altı parlamentar müxtəlif səbəblərdən iclasda iştirak etməmişdir.

Yekaterini Sakellaropulu indiyədək Dövlət Şurasının - Ali İnzibati Məhkəməsinin sədri idi. O, hakim sağ mərkəzçi “Yeni demokratiya” partiyasının, əsas müxalifət partiyasının - SİRİZA radikal solçu qüvvələr koalisiyasının və solçu “Dəyişikliklər hərəkatı”nın deputatlarının verdiyi səslər sayəsində ölkə tarixində ali dövlət vəzifəsinə seçilən ilk qadındır.

## “Toyota” 3,4 milyon maşını geri çağırır




Yaponiyanın “Toyota Motor Corp” korporasiyası təhlükəsizlik yastıqlarının işində problemlər yarada biləcək elektron idarəetmədə nasazlığa görə ABŞ-da və dünyanın digər ölkələrində 3,4 milyon avtomobili geri çağırır. Bu barədə “Rosbalt” agentliyi xəbər verir.

Şirkətdən verilən məlumata görə, ABŞ-dan 2,9 milyon avtomobil, digər ölkələrdən 500 min maşın geri çağırılacaq. Problem Corolla (2011-2019-cu illər buraxılışı), Matrix (2011-2013), Avalon (2012-2018) və Avalon Hybrid (2013-2018) modellərinə aiddir. Həmin maşınlarda quraşdırılmış elektron idarəetmə bloku qəza zamanı peyda olan elektrik maneələrinə həssasdır. Bu isə təhlükəsizlik yastıqlarının açılmasında problem yarada bilər.

Mütəxəssislər şirkətin servislərində geri çağırılan avtomobillərdə maneələrə qarşı xüsusi müdafiə quraşdıracaqlar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Elçin və Mahir Muradov qardaşlarına ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Aqrarkredit” Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov Mahir və Elçin Muradov qardaşlarına ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mahmud Məmmədov Mahir və Elçin Muradovlara ataları, şərqşünas alim

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Mahir və Elçin Muradovlara ataları, şərqşünas alim

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Mahir və Elçin Muradovlara ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Mahir və Elçin Muradovlara ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin Elmi kitabxanasının rəhbərliyi və kollektivi universitetin prorektoru Əliş Ağamirzəyevə bacısı

**HƏCƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Mahir və Elçin Muradovlara ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Salyan Rayon Məhkəməsinin kollektivi Ali Məhkəmənin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin müdiri Bəhman Qəribova atası

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6832
Sifariş 199
Qiyməti 40 qəpik